IDEA ON FOR EARTH 5 YEARS



# ANNIVERSARY REPORT

TREE PLANTING AND PROTECTION OF GREENERIES / CONSERVATION EFFORTS AND ANIMAL PROTECTION / MARINE AND COASTAL CONSERVATION
SUSTAINABLE TRANSPORT / EDUCATION / RAISING PUBLIC AWARENESS / GREEN COMPETITIONS / GREEN AGENDA THROUGH ART, EXHIBITIONS
INNOVATIVE DIALOGUE: FORUMS, CONFERENCES, SUMMITS / PARTNERSHIP AND COOPERATION

# 2011 · 2016

# BEŞİLLİK HESABAT


IDEA
5 YEARS
ON FOR EARTH
4 QUALITY EDUCATION
6 CLEAN WATER AND SANITATION
7 AFFORDABLE AND CLEAN ENERGY
11 SUSTAINABLE CITIES AND COMMUNITIES
12 RESPONSIBLE CONSUMPTION AND PRODUCTION
13 CLIMATE ACTION
14 LIFE BELOW WATER
15 LIFE ON LAND
17 PARTNERSHIPS FOR THE GOALS
SUSTAINABLE DEVELOPMENT GOALS

# MESSAGE FROM THE FOUNDER

Although diversity is a feature mainly attributed to Azerbaijan due to its centuries-old polyethnic and multi-cultural society, the extensive variety of the country's natural environments is no less remarkable, to say the least. Famous for the abundance of its hydrocarbon reserves, Azerbaijan is home to far more precious natural resources - its complex ecosystems, rich flora and fauna are our most valuable and, yet, vulnerable national treasures.

It was with the vision to protect these treasures that we founded IDEA (International Dialogue for Environmental Action) on 12 July 2011. Our organization embarked on an ambitious mission to restore and preserve the country's biodiversity, ensure its sustainable development, promote green economy and application of eco-friendly technologies, as well as to contribute to the ecological balance through expanding green spaces and tackling pollution.

Looking back at results accomplished within the past five years, I am confident that we are on the right track in protecting our environment and making it safer for future generations. Since we launched IDEA, thousands of youth have benefitted from our educational programs and joined our environmental campaigns, millions of trees have been planted and saved across Azerbaijan, and great strides have been made in biodiversity conservation and sustainable development. Over a relatively short period of time our fairly young organization has grown bigger, stronger and more capable of leading and motivating young people to join the noble global effort to protect our Planet.

As IDEA marks the 5th anniversary of its creation, we have many successes to celebrate, both at home and abroad. While gratified and overwhelmed by results of countless activities of the recent years, we are also greatly pleased to have witnessed such landmark global developments as signing of the Paris Climate Agreement and adoption of the 2030 Agenda for Sustainable Development.

The tide has shifted – we are now at a historical juncture in the global environmental movement. Today, more than ever before, we have an opportunity and a duty to boost the momentum towards a green, healthy and sustainable living.

I invite everyone to join IDEA in its campaign to save our Planet for present and future generations.

Get on board – there is much to be done. We have only

ONE EARTH AND ONE FUTURE!



IDEA

International Dialogue for Environmental Action

# TƏSİSÇİNİN MÜRACİƏTİ

Müxtəliflik əsasən Azərbaycanın çoxəsirlik polietnik və multikulturalist cəmiyyətinə aid edilən xüsusiyyət olsa da, ölkəmizin təbii mühitlərinin rəngarəngliyi eyni dərəcədə əlamətdardır. Öz nəhəng karbohidrogen ehtiyatlarına görə məşhur olan Azərbaycan bundan qat-qat daha qiymətli, lakin həssas olan milli təbii sərvətlərə malikdir ki, bu da ölkəmizin mürəkkəb ekosistemləri, zəngin florası və faunasıdır.

Məhz bu sərvətlərin qorunması məqsədilə, 12 iyul 2011-ci il tarixində biz IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxaq dialoq) İctimai Birliyini təsis etdik. Bizim təşkilat ölkənin biomüxtəlifliyinin bərpası və qorunması, davamlı inkişafının təmin edilməsi, "yaşıl" iqtisadiyyat və texnologiyaların təşviqi, yaşıllıqların artırılması və çirklənmənin aradan qaldırılması vasitəsilə ekoloji tarazlığa töhfə verilməsi kimi iddialı bir missiyanı öz üzərinə götürmüşdür.

Son beş ildə əldə edilmiş nəticələrə nəzər saldıqda, ətraf mühitimizin mühafizəsi və gələcək nəsillər üçün daha təhlükəsiz edilməsi işində doğru yolda olduğumuza daha da əmin oluram. IDEA yaradıldıqdan bəri minlərlə gənc bizim təhsil proqramlarımızdan faydalanmış və ekoloji aksiyalarımıza qoşulmuşdur, ölkə boyu milyonlarla ağac əkilmiş və xilas edilmişdir, biomüxtəlifliyin qorunub saxlanılması və davamlı inkişaf istiqamətində mühüm addımlar atılmışdır. Nisbətən qısa bir zaman ərzində təşkilatımız böyümüş, daha nüfuzlu olmuş və gəncləri istiqamətləndirmək, onları Planetimizin qorunmasına yönəlmiş nəcib səylərə qoşulmağa sövq etməyə qadir olan bir qüvvəyə çevrilmişdir.

IDEA-nın yaradılmasının 5 illiyini qeyd etdiyimiz bir vaxtda, son illər həm Azərbaycanda, həm də beynəlxalq aləmdə vacib nailiyyətlərin əldə edilməsi bizi daha da ruhlandırır. Ötən illər ərzində tərəfimizdən həyata keçirilmiş saysız-hesabsız təşəbbüslərin nəticələri ilə fərəhlənərkən, Paris İqlim Sazişinin imzalanması və Davamlı İnkişaf üzrə 2030 Gündəliyinin qəbul edilməsi kimi dünyada baş verən mühüm hadisələrdən də böyük məmnunluq duyuruq.

Hazırda biz qlobal ətraf mühit hərəkatı üçün həlledici tarixi məqam yaşayırıq. Bu gün, dünyada yaşıl, sağlam və davamlı həyata nail olunmasına yönəlmiş səylərə təkan vermək üçün daha əlverişli imkanımız və öhdəliyimiz var.

Hər kəsi Planetimizin indiki və gələcək nəsillər üçün qorunması üzrə IDEA-nın kampaniyasına qoşulmağa dəvət edirəm.

Bizə qoşulun - görüləcək işlər çoxdur. Bizim yalnız BIR DÜNYA VƏ BIR GƏLƏCƏYIMIZ VAR!

# ABOUT THE FOUNDER

The founder of IDEA Leyla Aliyeva is an Azerbaijani artist, poet and cultural figure as well as a social and environmental activist.

Leyla Aliyeva was born on 3 July 1985 in Moscow. She studied both in London and Moscow and gained a Master's Degree from the Moscow State Institute of International Relations (MGIMO) in 2008. She remained the President of the MGIMO Azerbaijan Club until 2010.

In May 2007, she was appointed as the representative of the Heydar Aliyev Foundation in the Russian Federation and, in 2011, became the Vice-President of the Foundation.

In December 2007, Leyla Aliyeva founded "BAKU" magazine in Moscow; the English-language version of the magazine was launched in London in October 2011.

On 8 May 2008, on the 16th anniversary of the occupation of Shusha, Leyla Aliyeva launched an international campaign called "Justice for Khojaly" aimed at raising the global community's awareness of the Nagorno Karabakh conflict and the Khojaly Genocide.

Also, in May 2008, she became the General Coordinator of the OIC Youth Forum for Intercultural Dialogue and, in April 2009, she was elected Chairperson of the Azerbaijani Youth Organization of Russia – AMOR, which supports Azerbaijani students and young people living in the Russian Federation.

On 12 July 2011, Leyla Aliyeva founded the International Dialogue for Environmental Action (IDEA), with the vision to protect the rich nature of Azerbaijan and the greater Caucasus region, and to preserve it for future generations by promoting public awareness and action on environmental challenges. Thanks to her leadership, IDEA has become the champion of the green movement in Azerbaijan, a regional hub for environmental activities and a reliable partner to prominent international organizations such as UNEP, FAO, UNDP, IUCN and WWF.

On 25 May 2015, she was designated as Goodwill Ambassador of the Food and Agriculture Organization of the United Nations (FAO).

Leyla Aliyeva is a recipient of numerous awards and honors, including the Azerbaijani state medal "Taraggi" (Progress), a special Certificate and Commendation from the United Nations, and "Key To Life" award from the New York-based Children's Cancer & Blood Foundation in 2011; the medal "For Merits Before the Astrakhan Oblast" in 2012; the Saint Princess Olga Medal of the 3rd degree, the medal "For Services to Volgograd Region", and the special international honor for 'Environmental Protection' from the steering committee of INEPO-Eurasia in 2013; the Pushkin Medal of the Russian Federation in 2015, and a diploma of professor emeritus of the Moscow State University of Humanities and Economics in 2016.

She has twin sons and a daughter.



# Təsisçi HAQQINDA

IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva azərbaycanlı rəssam, şair və mədəniyyət xadimi, eləcə də ictimai və ekoloji fəaldır.

Leyla Əliyeva 3 iyul 1985-ci ildə Moskva şəhərində anadan olmuşdur. O, Londonda və Moskvada təhsil almış, 2008-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MGIMO) magistr dərəcəsini əldə etmişdir. 2010-ci ilə qədər MGİMO-da Azərbaycanlılar Klubunun sədri olub.

2007-ci ildən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, 2011-ci ildən isə fondun vitse-prezidenti vəzifəsini tutur.

2007-ci il dekabr ayında Moskvada “Baku” jurnalını təsis etmiş, 2011-ci ilin oktyabr ayında Londonda jurnalın ingilis dilli versiyasını təqdim etmişdir.

8 may 2008-ci il Şuşa şəhərinin işğalının 16-cı il dönümündə başlanmış, Xocalı soyqırımı və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq maarifləndirmənin artırılması məqsədini daşıyan “Xocalıya Ədalət” beynəlxalq kampaniyasının təşəbbüskarıdır.

2008-ci ilin mayından İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi, 2009-cu il aprelindən Rusiyada yaşayan azərbaycanlı tələbələrə dəstək göstərən Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri vəzifəsində çalışır.

12 iyul 2011-ci il tarixində Azərbaycan və Cənubi Qafqazın zəngin təbiətinin mühafizə edilməsi, ekoloji məsələlərlə bağlı ictimai maarifləndirmə və fəallığın artırılması və bununla təbiətimizin gələcək nəsillər üçün qorunub saxlanılması məqsədi ilə, Leyla Əliyeva Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq - IDEA İctimai Birliyini təsis etmişdir. Onun rəhbərliyi altında IDEA Azərbaycanda “yaşıl” hərəkatın aparıcı qüvvəsinə, ətraf mühit üzrə fəaliyyətin regional mərkəzinə, UNEP, FAO, UNDP, IUCN və WWF kimi mötəbər beynəlxalq təşkilatların etibarlı tərəfdaşına çevrilmişdir.

25 may 2015-ci il tarixində Leyla Əliyeva BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Xoşməramlı səfiri adına layiq görülmuşdür.

Leyla Əliyeva bir çox mükafat və fəxri adlarla təltif edilmiş, o cümlədən Azərbaycan Respublikasının “Tərəqqi” medalını, BMT-nin sertifikat və xüsusi vəsiqəsini, Nyu-Yorkda yerləşən Uşaq Xərçəng və Qan Fondunun “Key to life” fəxri mükafatını, “Həştərxan vilayəti qarşısında xidmətlərinə görə” mükafatı, III dərəcəli Müqəddəs Mələksima “Knyaginya Olqa” ordenini, “Volqoqrad vilayəti qarşısında xidmətlərə görə” medalı, İNEPOAvrasiya idarə heyəti tərəfindən “Ekoloji Mühitin Qorunmasına Görə” xüsusi beynəlxalq şərəf mükafatını, Rusiya Federasiyasının “Puşkin” medalını, eləcə də Moskva Dövlət Humanitar İqtisad Universitetinin fəxri professoru diplomunu almışdır.

İki oğlu, bir qızı var.



IDEA

International Dialogue for Environmental Action

# 5 MILLION

11 SUSTAINABLE CITIES AND COMMUNITIES

**SUSTAINABLE CITIES AND COMMUNITIES**

Make cities inclusive, safe, resilient and sustainable

13 CLIMATE ACTION

**CLIMATE ACTION**

Take urgent action to combat climate change and its impacts




# TREE PLANTING AND PROTECTION OF GREENERIES

In a world preoccupied with economic growth, industrial output and urbanization, implementation of 11th (Sustainable Cities and Communities) and 13th (Climate Action) sustainable development goals is an effort that must be multifaceted and simultaneous. Indeed, planting and protecting trees, which absorb carbon dioxide, provide the oxygen we breathe and support our livelihoods, is an important and immediate measure that should be taken to this end. IDEA is proud to have carried out numerous projects aimed at protection and expansion of green spaces in Azerbaijan. Within these projects, many of which are ongoing and regular, more than 5 million trees have been planted across the country with the help of IDEA volunteers, and hundreds of cases of illegal tree felling have been resolved.

# AĞACƏKMƏ VƏ YAŞILLIQLARIN MÜHAFİZƏSİ

İqtisadi inkişaf, sənayeləşmə və urbanizasiyanın yüksək şəkil aldığı bir dünyada 11-ci (Davamlı şəhərlər və icmalar) və 13-cü (İqlim fəaliyyəti) davamlı inkişaf məqsədlərinin (SDG) həyata keçirilməsi hərtərəfli və paralel yanaşma tələb edən səydir. Karbon dioksidini udan, nəfəs aldığımız oksigenlə bizi təmin edən və həyatımızı dəstəkləyən ağacların artırılması və mühafizəsi bu xüsusda görüləcək ən vacib və təxirəsalınmaz tədbirdir. IDEA Azərbaycanda yaşıllıqların qorunması və genişləndirilməsi üzrə bir çox misli görünməmiş layihələrə imza atmışdır. Bu təşəbbüslər çərçivəsində IDEA könüllülərinin dəstəyi ilə ölkə ərazisində 5 milyondan çox ağac əkilmiş və yüzlərlə qanunsuz ağac kəsintisi cəhdinin qarşısı alınmışdır.




## 2011 – 2012

## "A YOUNG TREE FOR A YOUNG SPIRIT"

**Objective:** Expand green public spaces, promote environmental ethics and youth engagement in environmental action, and raise awareness of Earth Day and the UN conference Rio+20 on Sustainable Development.

**Partners:** Ministry of Ecology and Natural Resources, Baku City Executive Power, IDEA volunteers.

**Outcome:** 300,000 trees were planted in various areas of Baku.

## 2014 – 2015

## GREEN MARATHON

**Objective:** Expansion of green areas, prevention of deforestation and combat desertification.

**Partners:** Ministry of Ecology and Natural Resources, executive powers of 76 districts and cities of Azerbaijan.

**Outcome:** More that 1.5 million trees were planted throughout the country. Overall, around 1 million trees were planted in Azerbaijan each year since IDEA's establishment within its various tree-planting campaigns.

## 2014 – PRESENT

## "LET'S TURN PAPERS INTO LEAVES!"

**Objective:** Increase public awareness on post-consumer recycling, engage all pillars of society in tackling ecological problems, and ensure effective waste management in order to minimize damage to the environment.

**Partners:** ASAN Agency, Tamiz Shahar JSC, Azersun Holding

**Outcome:** Waste paper containers were installed in front of all ASAN Service Centers in the country; 450 tons of paper has been collected so far and sent for reprocessing; thousands of trees have been planted in Baku and other major cities of Azerbaijan.

## 2014 – PRESENT

## "NO TREE CUTTING!" PROGRAM

**Objective:** Preventing and combating the illegal tree cutting and removal of trees and shrubs, and restoring green areas in Baku and suburbs.

**Partners:** Heydar Aliyev Foundation, Ministry of Ecology and Natural Resources.

**Outcome:** 1113 hotline called "First Aid to Nature" and a mobile response team was created. The program has addressed around 300 complaints in 2 years and included numerous public awareness-raising campaigns and tree-planting events.



**2011 – 2012**

## "CAVAN RUH ÜÇÜN CAVAN AĞAC"

**Məqsəd:** İctimai yaşıllıqların genişləndirilməsi, ətraf mühitə qarşı məsuliyyətli davranışın və onun qorunmasında gənclərin iştirakının təşviqi, Beynəlxalq Yer Günü və BMT-nin Rio+20 Konfransı ilə bağlı maarifləndirmə.

**Tərəfdaşlar:** Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, IDEA könüllüləri.

**Nəticə:** Bakının müxtəlif ərazilərində 300 mindən çox ağac əkilmişdir.

**2014 – 2015**

## YAŞIL MARAFON

**Məqsəd:** Yaşıllıqların artırılması, meşə sahələrinin azalmasının qarşısının alınması və səhralaşma ilə mübarizə.

**Tərəfdaşlar:** Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 76 rayon və şəhərin icra hakimiyyətləri.

**Nəticə:** Respublika ərazisində 1,5 milyondan çox ağac əkilmişdir. Ümumiyyətlə, IDEA-nın təsis edilmısindən etibarən hər il müxtəlif ağacəkmə kampaniyaları çərçivəsində Azərbaycanda təxminən 1 milyon ağac əkilmişdir.

**2014 – DAVAM EDİR**

## "HƏR KAĞIZI BİR YARPAĞA DƏYİŞƏK"

**Məqsəd:** Təkrar istehsal barədə ictimai maarifləndirmənin artırılması, ekoloji problemlərlə mübarizədə cəmiyyətin bütün təbəqələrinin iştirakı və ətraf mühitə zərərin minimuma salınması üçün tullantıların səmərəli idarə olunmasını təmin etmək.

**Tərəfdaşlar:** ASAN Agentliyi, Təmiz Şəhər ASC, Azersun Holding.

**Nəticə:** Ölkə ərazisində fəaliyyət göstərən bütün ASAN Xidmət Mərkəzlərinin qarşısında işlənmiş kağız məmulatlarının yığılması üçün xüsusi konteynerlər quraşdırılmış, bu günə qədər 450 tondan çox kağız toplanmış, təhvil verilmiş kağız tullantılarının müqabilində Bakıda və digər iri şəhərlərdə minlərlə ağac əkilmişdir.

**2014 – DAVAM EDİR**

## "AĞACLARIN KƏSİLMƏSİNƏ YOX!" PROQRAMI

**Məqsəd:** Bakıda və onun ətrafında qanunsuz ağac kəsilməsi hallarının qarşısının alınması və yaşıllıqların bərpası.

**Tərəfdaşlar:** Heydər Əliyev Fondu, Ekologiya və Təbii Sərvətlər Nazirliyi.

**Nəticə:** 1113 "Təbiətə təcili yardım" adlı xüsusi qaynar xətt və mobil qrup təsis edilmişdir. Ötən iki il müddət ərzində Proqram çərçivəsində 300-ə yaxın vətəndaş şikayətinə baxılmış, ictimai maarifləndirmə tədbirləri təşkil edilmiş və kütləvi ağacəkmə aksiyaları keçirilmişdir.


YAP
Gəncə


ATU
IDEA



# PROFESSOR HUSEYNGULU BAGHIROV

## MINISTER OF ECOLOGY AND NATURAL RESOURCES OF THE REPUBLIC OF AZERBAIJAN

Increasing civil participation in addressing environmental problems and developing ecological consciousness among citizens can ensure that projects carried out in this regard are effective and yield sustainable results.

Founded five years ago by the Vice-president of the Heydar Aliyev Foundation Ms. Leyla Aliyeva, IDEA has remarkably contributed to efforts aimed at environmental protection.

Within a short period of time, IDEA has taken the leading role in strengthening cooperation between the Government and NGO's in the area of environmental protection and helped expand the civil society's influence on state institutions.

Throughout its operation, the organization has implemented important regional and international projects aimed at public awareness-raising, promoting preservation of the environment and natural resources as national treasures for future generations and increasing the youth's role in society.

We are confident that IDEA will remain true to its mission as our main partner representing the civil society.

I congratulate IDEA and its staff on this anniversary and wish every success in the organization's future endeavors.

# PROFESSOR HÜSEYNQULU BAĞIROV

## AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ

Ətraf mühit problemlərinin həllində vətəndaş fəaliyyətinin gücləndirilməsi, əhalinin ekoloji şüur səviyyəsinin artırılması bu sahədə həyata keçirilən layihələrin səmərəli və nəticələrinin dayanıqlı olmasına zəmin yaradır.

Ölkəmizdə ekologiya sahəsində görülən işlərdən danışdıqda təməli 5 il bundan əvvəl Heydər Əliyev Fondunun vitse-prezdenti Leyla xanım Əliyeva tərəfindən qoyulmuş IDEA İctimai Birliyini xüsusi qeyd etmək lazımdır.

IDEA Ictimai Birliyi qısa zamanda ətraf mühitin mühafizəsi sahəsində hökumət və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın gücləndirilməsində liderliyi ələ almış, vətəndaş cəmiyyətinin dövlət qurumlarına təsir imkanlarının yaradılmasına mühüm töhfə vermişdir.

Təşkilat fəaliyyət göstərdiyi müddətdə ictimai maarifləndirmə, ətraf mühit və təbii sərvətlərin milli dəyər kimi gələcək nəsillər üçün qorunub saxlanması ideyalarının gənclər arasında təbliği və gənclərin cəmiyyətdə rolunun artırılması istiqamətində mühüm regional və beynəlxalq layihələr həyata keçirmişdir.

İnanırıq ki, IDEA İctimai Birliyi bizim vətəndaş cəmiyyətini təmsil edən əsas partnyorumuz kimi bundan sonra da öz missiyasını layiqincə yerinə yetirəcəkdir.

IDEA İctimai Birliyini və kollektivini yubiley münasibətilə təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

International
Dialogue for
Environmental
Action



15 LIFE ON LAND

**LIFE ON LAND**

Sustainably manage forests, combat desertification, halt and reverse land degradation, halt biodiversity loss



# CONSERVATION EFFORTS AND ANIMAL PROTECTION

Biodiversity is critical for the Earth's life support system and healthy ecosystems directly contribute to human well-being in many ways. Halting biodiversity loss by 2030 is among the targets set in SDG 15 (Life on Land) and making it happen will require extraordinary global efforts. Since its inception, IDEA focused many of its activities on the preservation of the rich fauna and flora of the region. In 2012, IDEA identified the Caucasian "big five" – animals that are under threat of extinction – the brown bear, imperial eagle, grey wolf, gazelle and Caucasian leopard. Since then, IDEA has taken a number of practical steps to preserve each of these species and intends to take action with regard to the restoration of other species of the region facing the threat of extinction. Furthermore, the organization takes measures to protect the urban wildlife and to address the issue of homeless animals in Baku and other cities of Azerbaijan.

# MÜHAFİZƏ SƏYLƏRİ VƏ HEYVANLARIN QORUNMASI

Biomüxtəliflik Yer kürəsində həyatın dəstəklənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Sağlam ekosistemlər insanların həyatına bir çox aspektdən təsir göstərir. 2030-cu ilə qədər biomüxtəlifliyin yox olmasının qarşısını almaq SDG 15-də (Qurudakı həyat) əks olunan hədəflər sırasındadır və bunun həyata keçməsi müstəsna qlobal səylər tələb edir. Təsis edildiyi tarixdən IDEA regionun zəngin flora və fauna növlərinin mühafizəsi ilə bağlı mühüm tədbirlər həyata keçirmişdir. 2012-ci ildə IDEA regionun nəsli kəsilmək təhlükəsi altında olan heyvanlarını (qonur ayı, imperial qartalı, boz canavar, ceyran və Qafqaz bəbiri) – Qafqazın böyük beşliyini müəyyən etdi. Həmin dövrdən etibarən IDEA bu heyvanların hər birinin mühafizəsi üzrə praktiki addımlar atmış və regionun digər heyvan növlərinin populyasiyasının bərpası üzrə tədbirlər görmüşdür. Bundan əlavə təşkilat şəhərlərdə məskən salmış heyvanların mühafizəsi ilə məşğul olur və Bakıda və Azərbaycanın digər iri şəhərlərində kimsəsiz heyvanlar probleminin həllinə töhfə verir.



**2012 – PRESENT**

## THE CAUCASUS BIG FIVE

**Objective:** Protecting and restoring the populations of the five endangered animals of the Caucasus: the brown bear, imperial eagle, grey wolf, goitered gazelle and Caucasian leopard.

**Partners:** Heydar Aliyev Foundation, Ministry of Ecology and Natural Resources, WWF Azerbaijan.

**Outcome:** Up to 200 gazelles were resettled into different areas of Azerbaijan and Georgia within the program "Reintroduction of gazelles into their historical habitat in the Caucasus", with subsequent measures to monitor movements, combat illegal hunting and protect these animals.

A number of measures have been taken to protect Caucasian leopards and increase their number, while a series of events were organized to raise public awareness about the significance of these endangered animals. Based on data obtained through camera traps provided by IDEA, it is estimated that only nine Caucasian leopards remain in Azerbaijan.

**2012**

## MAIDEN TOWER BIRDHOUSES

**Objective:** Preservation of the urban wildlife in Baku; saving birds' nests and ensuring their safe transfer during renovation works on the Maiden Tower.

**Partner:** "Icherisheher" State Historical-Architectural Reserve.

**Outcome:** Around 200 artificial swift nests were installed in the historic part of Baku that allowed safe transfer of birds from their old nests on the Maiden Tower. The project ensured the protection of birds for the period of renovation.

**2015**

## NEW TIGER ENCLOSURE IN THE BAKU ZOO

**Objective:** Improvement of housing conditions at the Baku Zoo.

**Partner:** Heydar Aliyev Foundation.

**Outcome:** A new, modern and spacious tiger enclosure was provided for the Baku Zoo, featuring separate rooms to protect the animal from heat and cold, a large swimming pool, playground and other features that resemble the natural habitat of tigers.



**2012 – DAVAM EDİR**

## "QAFQAZIN BÖYÜK BEŞLİYİ"

**Məqsəd:** Qafqazın nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş beş heyvan növünün – qonur ayı, imperator qartalı, boz canavar, ceyran və Qafqaz bəbirinin mühafizəsi və populyasiyasının bərpası.

**Tərəfdaşlar:** Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Heydər Əliyev Fondu, WWF Azərbaycan.

**Nəticə:** "Ceyranların Qafqazdakı tarixi yaşayış areallarına reintroduksiyası" layihəsi çərçivəsində 200-ə yaxın ceyran Azərbaycan və Gürcüstandakı müxtəlif ərazilərə məskunlaşdırılmışdır, onların hərəkətləri və qanunsuz ovlanması mütəmadi olaraq nəzarət altında saxlanılır.

Qafqaz bəbirinin mühafizəsi və sayının artırılması üzrə bir sıra işlər görülmüş, ictimai maarifləndirmənin artırılması məqsədilə silsilə tədbirlər təşkil olunmuşdur. IDEA tərəfindən təchiz edilmiş kamera tələləri vasitəsilə Azərbaycanda cəmi doqquz fərd Qafqaz bəbirinin olduğu məlum olmuşdur.

**2012**

## QIZ QALASI QUŞ YUVALARI

**Məqsəd:** Bakı şəhərində canlıların mühafizəsi, Qız Qalasında həyata keçirilən təmir-bərpa işləri müddətində quşların yuvalarının qorunması.

**Tərəfdaş:** "İçərişəhər" Tarixi-Memarlıq Qoruğu.

**Nəticə:** Bakının tarixi hissəsində 200-ə yaxın süni quş yuvaları quraşdırılmışdır. Layihə təmir-bərpa işləri müddətində quşların təhlükəsizliyini təmin etmişdir.

**2015**

## BAKI ZOOPARKINDA YENİ PƏLƏNG QƏFƏSİ

**Məqsəd:** Bakı Zooloji Parkında heyvanların saxlanma şəraitinin yaxşılaşdırılması.

**Tərəfdaş:** Heydər Əliyev Fondu.

**Nəticə:** Bakı Zooloji Parkında yeni, müasir və geniş pələng qəfəsi inşa edilmiş və hər cür şəraitlə, o cümlədən heyvanın soyuqdan və istidən qorunması üçün ayrıca otaqlar, böyük hovuz, oyun meydançası və s. təchiz olunmuşdur.




**2014 – 2016**

## IDEA ANIMAL CARE CENTER

**Objective:** Contribute to animal welfare, especially of homeless dogs and cats, manage their populations, through sterilization programs, adoptions and awareness-raising; reduce risks associated with zoonotic diseases.

**Partners:** Heydar Aliyev Foundation, The European Azerbaijan Society.

**Outcome:** The foundation for the new animal care center equipped with a modern veterinary clinic and other facilities to provide a full range of animal care services was laid on 09 October 2014. IDEA Animal Care Center is expected to open in late 2016.

**2014**

## IMPROVEMENT OF THE TEMPORARY DOG SHELTER IN THE SABUNCHU DISTRICT

**Objective:** Improve housing conditions of homeless dogs in Baku.

**Partner:** Baku City Executive Power.

**Outcome:** The temporary dog shelter in the Balakhani settlement of the Sabunchu district was renovated and received 40 high-quality doghouses.

**2015**

## ATTITUDE SURVEY OF CITY RESIDENTS ON DOGS

**Objective:** Study and analyze the attitudes of Baku residents toward dogs, especially stray dogs, prior to the opening of IDEA Animal Care Center.

**Partner:** The European Azerbaijan Society.

**Outcome:** Up to 1500 people were surveyed in various districts of Baku. Survey responses were analyzed to learn the public's views on stray and owned dogs, including on responsible dog ownership, humane treatment of dogs, animal cruelty, etc.

**2014 – 2016**

## IDEA HEYVANLARA QAYĞI MƏRKƏZİ

**Məqsəd:** Heyvanların, xüsusilə də it və pişiklərin vəziyyətinə töhfə vermək, onların sayını qısırlaşdırma proqramları, himayəyə götürmə və ictimai maarifləndirmə vasitəsilə tənzimləmək, yolxucu xəstəliklərin yayılması riskini azaltmaq.

**Tərəfdaşlar:** Heydər Əliyev Fondu, Avropa Azərbaycan Cəmiyyəti.

**Nəticə:** 9 oktyabr 2014-cü il tarixində müasir baytarlıq klinikası və digər müəssisələrlə təchiz edilmiş yeni Qayğı Mərkəzinin təməli qoyulmuşdur. IDEA Heyvanlara Qayğı Mərkəzinin 2016-cı ilin sonunda açılması nəzərdə tutulur.

IDEA Animal Care Center

**2014**

## SABUNÇU RAYONUNDA YERLƏŞƏN MÜVƏQQƏTİ İT SIĞINACAĞININ YAXŞILAŞDIRILMASI

**Məqsəd:** Bakı şəhərində kimsəsiz itlərin vəziyyətinin yaxşılaşdırılması.

**Tərəfdaş:** Bakı Şəhər İcra Hakimiyyəti.

**Nəticə:** Sabunçu rayonunun Balaxanı qəsəbəsində yerləşən müvəqqəti sığınacaqda təmir işləri aparılmış və sığınacağa 40 ədəd yüksək keyfiyyətli it damı hədiyyə edilmişdir.



**2015**

## ŞƏHƏR SAKİNLƏRİNİN İTLƏRƏ MÜNASİBƏTİ İLƏ BAĞLI SOSİAL SORĞU

**Məqsəd:** IDEA Heyvanların Qayğı Mərkəzinin açılışı ərəfəsində Bakı sakinlərinin itlərə, xüsusilə də sahibsiz itlərə qarşı münasibətinin öyrənilməsi və təhlili.

**Tərəfdaş:** Avropa Azərbaycan Cəmiyyəti.

**Nəticə:** Bakının müxtəlif rayonlarında 1500 sakin sorğu edilmişdir. Sorğu iştirakçılarından kimsəsiz və sahibli itlərə münasibət, eləcə də məsuliyyətli sahiblik, qayğıkeş rəftar, heyvanlara qarşı qəddarlıq barədə məlumat alınmışdır.




BIG FIVE
OF THE CAUCASUS
IDEA Animal
Care Center





BLUE MARINE FOUNDATION

## CHARLES CLOVER

### BLUE MARINE FOUNDATION EXECUTIVE DIRECTOR

Since its inception, IDEA has been inspiring young people's scientific curiosity and creativity through its noble efforts to make the case for a better future. As a result, the past five years have seen a growing awareness in Azerbaijan of its iconic and endangered Caspian Sea fauna.

IDEA's forward-thinking endeavours have motivated BLUE to collaborate in a visionary project to save the Caspian sturgeon from the brink of extinction in the wild through conservation, social initiatives and innovation.

I would like to applaud IDEA on its first five years of inspiring young people to contribute to improved environmental awareness through practice and passion. This responsibility taken on by IDEA has seen results in many projects. Perhaps the most admirable result is the sense of environmental responsibility that IDEA has inspired in the next generation of Azerbaijanis.

## ÇARLZ KLOVER

### MAVİ DƏNİZ FONDUNUN İCRAÇI DİREKTORU

Yarandığı vaxtan etibarən, IDEA, daha yaxşı gələcəyin təşviqinə yönəlmiş öz nəcib səyləri ilə gənclərin elmə həvəsi və kreativliyini ruhlandırır. Bunun nəticəsi olaraq, son beş il ərzində Azərbaycanda Xəzər dənizinin nəsli kəsilmək təhlükəsi altında olan dəyərli faunası haqqında məlumatlılığın artırılması müşahidə olunur.

IDEA-nın proqressiv səyləri bizi mühafizə, sosial təşəbbüslər və innovasiyalar yolu ilə Xəzərdə nərəkimilərin xilas edilməsi üzrə bu təşkilatın uzaqgörən layihəsində iştirak etməyə sövq etmişdir.

Mən, IDEA-nın ətraf mühit sahəsində maarifləndirmənin artırılması prosesinə gənclərin cəlb olunmasına yönəlmiş ilk beş illik fəaliyyətini xüsusilə alqışlayıram. IDEA-nın üzərinə götürdüyü bu vəzifə çoxsaylı layihələrdə öz uğurlu nəticəsini tapmışdır. Yeni nəsil azərbaycanlılar arasında təbiətə qarşı məsuliyyət hissinin inkişaf etməsi IDEA-nın fəaliyyətinin ən təqdirəlayiq nailiyyəti olmuşdur.

International Dialogue for Environmental Action




6 CLEAN WATER AND SANITATION

**CLEAN WATER AND SANITATION**

Ensure access to water and sanitation for all

14 LIFE BELOW WATER

**LIFE BELOW WATER**

Conserve and sustainably use the oceans, seas and marine resources



# MARINE AND COASTAL CONSERVATION

The health of marine environment is equally vulnerable to adverse human activities as the terrestrial realm, although its severity and scale are generally underestimated. Pollution, overfishing and climate change threaten to permanently and negatively transform Earth's waters as well as our lives. Urgent action must be taken to improve water quality and protect marine and coastal ecosystems by reducing pollution, restoring water-related ecosystems, supporting participation of local communities in improving water and sanitation management, and combating unregulated fishing and destructive fishing practices, in accordance with SDGs 6 (Clean Water and Sanitation) and 14 (Life Below Water). That is why saving the unique biodiversity of the Caspian Sea and other water basins in the Caucasus region is one of IDEA's utmost priorities, and the organization is determined to do its part to address this issue, in cooperation with its local and international partners.

# DƏNİZ VƏ SAHİL ƏTRAF MÜHİTİNİN MÜHAFİZƏSİ

Dəniz ətraf mühiti də quru təbiəti kimi neqativ insan fəaliyyətinə həssasdır. Lakin bir çox hallarda bu həssaslığın miqyası və ciddiliyi lazımi dərəcədə dəyərləndirilmir. Çirkləndirmə, həddindən artıq balıqtutma və iqlim dəyişikliyi planetimizin sularını və həyatımızı daimi və neqativ şəkildə dəyişməklə təhdid edir. SDG 6 (Təmiz su və sanitariya) və SDG 14-ə (Suda həyat) uyğun olaraq, çirklənmənin azaldılması, su ekosistemlərinin bərpası, su və sanitar vəziyyətin yaxşılaşdırılmasında yerli icmaların dəstəklənməsi və həddən artıq balıq ovlanması və dağıdıcı balıqçılıq fəaliyyəti ilə mübarizə vasitəsilə suyun keyfiyyətinin artırılması və dəniz ekosisteminin qorunması üçün təxirəsalınmaz addımlar atılmalıdır. Bu səbəbdən Xəzər dənizinin və Qafqaz regionun digər su hövzələrinin unikal biomüxtəlifliyinin xilası IDEA-nın əsas prioritetləri sırasındadır və təşkilat yerli və xarici tərəfdaşları ilə birlikdə problemin həllinə töhfə verməyə qərarlıdır.



**2013 – ANNUAL**

## ANNUAL COASTAL CLEANUP ACTIONS

**Objective:** Cleaning and restoration of polluted coastal areas and mobilization of communities for the protection of coastal areas.

**Partners:** Tamiz Shahar JSC, IDEA volunteers.

**Outcome:** Each year multiple cleanup events are held on the coast of the Caspian Sea, especially before and after the beach season and during the International Coastal Cleanup Week; tons of trash collected at these events are taken to the Balakhani Solid Waste Sorting Plant for recycling.

**2015**

## CLEANUP OF GILLNETS FROM THE KURA RIVER

**Objective:** Reduce the environmental damage caused by gillnets.

**Partner:** Ministry of Ecology and Natural Resources, Blue Marine Foundation.

**Outcome:** Hundreds of gill nets were removed from the estuary of the Kura River to allow free passage of fish during their spawning period.

**2015**

## GANJA RIVER CLEAN-UP

**Objective:** Clean and restore polluted riverside areas and encourage local communities to support the protection efforts in these areas.

**Partners:** Ganja City Executive Power, IDEA volunteers.

**Outcome:** On the occasion of the International Day of Action for Rivers, around 100 IDEA volunteers cleaned banks of the Ganja River; series of information sessions on the effects of pollution on the marine environment were held for the local communities.

**2016**

## WASTE FREE KURA

**Objective:** Clean and restore the polluted river environments and mobilize the local communities for the protection of coastal areas and rivers banks.

**Partners:** Ministry of Ecology and Natural Resources, Blue Marine Foundation, IDEA volunteers.

**Outcome:** Up to 100 volunteers took part in the clean-up event that resulted in the removal of about 2 tons of trash, including used nets from the Kura River and river banks.

## 2013 – HƏR İL

# İLLİK ÇİMƏRLİK TƏMİZLƏMƏ AKSİYASI

**Məqsəd:** Çirklənlmiş ərazilərin təmizlənməsi və bərpası və sahillərin mühafizəsi naminə cəmiyyətin səfərbər edilməsi.

**Tərəfdaşlar:** Təmiz Şəhər ASC, IDEA Könüllüləri.

**Nəticə:** Hər il çimərlik mövsümündən əvvəl və sonra, eləcə də Beynəlxalq Sahil Təmizliyi həftəsi zamanı Xəzər dənizi sahillərində silsilə təmizlik aksiyaları təşkil edilir. Tədbirlər zamanı toplanan tonlarla tullantı təkrar emal olunması üçün Balaxanı Bərk Məişət Tullantıları Zavoduna göndərilir.

## 2015

# KÜR ÇAYININ İSTİFADƏ OLUNMUŞ SİNTETİK TORLARDAN TƏMİZLƏNMƏSİ

**Məqsəd:** Sintetik torlar nəticəsində ətraf mühitə dəyən zərərin azaldılması.

**Tərəfdaş:** Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mavi Dəniz Fondu.

**Nəticə:** Kür çayının deltasından yüzlərlə istifadə olunmuş tor toplanmış və balıqların kürütökmə dövründə rahat miqrasiyası üçün şərait yaradılmışdır.

## 2015

# GƏNCƏÇAYIN TƏMİZLƏNMƏSİ

**Məqsəd:** Çay sahillərinin çirkləndirilmiş ərazilərinin təmizlənməsi və bərpası və yerli əhalinin mühafizə işlərinə həvəsləndirilməsi.

**Tərəfdaşlar:** Gəncə Şəhər İcra Hakimiyyəti, IDEA Könüllüləri.

**Nəticə:** Beynəlxalq Çaylar Günü ilə əlaqədar 100-ə yaxın IDEA könüllüsünün iştirakı ilə Gəncəçayın sahillərində təmizlik aksiyası keçirilmiş, aksiya çərçivəsində çirklənmənin çaylara və yerli əhaliyə mənfi təsirləri barədə broşürlər hazırlanaraq paylanmışdır.

## 2016

# TULLANTISIZ KÜR

**Məqsəd:** Çay sahillərinin çirkləndirilmiş ərazilərinin təmizlənməsi və bərpası və yerli əhalinin mühafizə işlərinə cəlb edilməsi.

**Tərəfdaşlar:** Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mavi Dəniz Fondu, IDEA Könülləri.

**Nəticə:** 100-ə yaxın könüllünün iştirakı ilə keçirilmiş tədbir zamanı 2 tondan artıq tullantı, o cümlədən istifadə olunmuş balıqçılıq toru Kür çayından və sahillərdən toplanmışdır.



International Dialogue for Environmental Action




7 AFFORDABLE AND CLEAN ENERGY

**AFFORDABLE AND CLEAN ENERGY**

Ensure access to affordable, reliable, sustainable and modern energy for all

11 SUSTAINABLE CITIES AND COMMUNITIES

**SUSTAINABLE CITIES AND COMMUNITIES**

Make cities inclusive, safe, resilient and sustainable

13 CLIMATE ACTION

**CLIMATE ACTION**

Take urgent action to combat climate change and its impacts



# SUSTAINABLE TRANSPORT

According to the United Nations, the transport sector is responsible for one quarter of energy-related greenhouse gas (GHG) emissions worldwide, with its emissions increasing at a faster rate than in any other sector. Therefore, any effective action directed at Sustainable Development Goals, particularly goals 7 (Affordable and Clean Energy), 11 (Sustainable Cities and Communities) and 13 (Climate Action), must embrace the issue of sustainability in transport.

Over the past decades, rapid economic growth in Azerbaijan was, among others, paralleled by a vast expansion of its transport sector. Although such development has numerous socio-economic benefits, it is now almost universally accepted that fundamental transformations are necessary in order to ensure access to a more sustainable, greener and modern transport for all. Against this background, IDEA, with its innovative initiatives, campaigns and activities, has been at the forefront of the nascent trend towards green transportation in Azerbaijan.

# DAVAMLI NƏQLİYYAT

BMT-nin hesabatlarına əsasən atmosferə buraxılan istixana qazlarının ¼-i nəqliyyat sektorunun payına düşür və bu sektor üzrə çirkləndirmə bütün digər sahələrə nisbətən daha sürətlə artır. Buna görə də Davamlı İnkişaf Məqsədlərinin, xüsusilə də SDG 7 (Münasib və təmiz enerji), SDG 11 (Davamlı şəhərlər və icmalar) və SDG 13-ün (İqlim fəaliyyəti) həyata keçirilməsi istiqamətində səmərəli tədbirlər nəqliyyatda davamlılıq məsələsini də əhatə etməlidir.

Son on ildə Azərbaycanda müşahidə olunan sürətli iqtisadi inkişaf digər sahələr kimi nəqliyyat sektorunun da genişlənməsinə təkan vermişdir. Bu inkişaf bir sıra sosial-iqtisadi üstünlüklər yaratsa da, hər kəs üçün daha davamlı, yaşıl və müasir nəqliyyatın təmin edilməsi naminə fundamental dəyişikliklər zəruridir. Bu xüsusda, daima innovativ təşəbbüs, kampaniya və fəaliyyəti ilə seçilən IDEA Azərbaycanda yaşıl nəqliyyat ənənəsinin yaradılmasında ön cəbhədə olmuşdur.



## 2015

# PRESENTATION OF THE FIRST ELECTRIC VEHICLE IN AZERBAIJAN

**Objective:** Promote the use of sustainable transportation in Azerbaijan, contribute to environmental protection through innovative methods, and create a healthy environment throughout the country.

**Partners:** Heydar Aliyev Foundation, Azerbaijan Automobile Federation, Green Car Azerbaijan.

**Outcome:** The first "Green Car" electric vehicle sales and services center was opened in Baku, offering free charge for owners of electric vehicles.

## 2015 – PRESENT

# INSTALLATION OF ELECTRIC CHARGING STATIONS

**Objective:** Bring the latest eco-friendly technological advances to Azerbaijan, contribute to environmental protection through innovative methods, foster the use of eco-friendly vehicles and create a healthy environment throughout the country.

**Partners:** Green Car Azerbaijan, Azerishig JSC.

**Outcome:** Three charging stations for electric vehicles have so far been installed in Baku, while up to 20 more of such stations are to be opened throughout the country. Per mutual agreement these stations offer free charge for electric vehicles.

## 2015 – PRESENT

# "IDEA" BICYCLE STAND

**Objective:** Promotion of bicycles as an ecologically-friendly mode of transport, reducing the use of motor vehicles.

**Partners:** Azerbaijan Cycling Federation, Green Car Azerbaijan.

**Outcomes:** Bicycle parking stands have been installed at various locations throughout Baku, while up to a 100 more stands are to be located in the city.

## 2013

# ECO-BICYCLE

**Objective:** Promotion of bicycles as an ecologically-friendly mode of transport, reducing the use of motor vehicles.

**Partners:** Heydar Aliyev Foundation, Ganja City Executive Power.

**Outcome:** Bicycle lanes were set and bicycle parking stands were installed in Ganja - the second largest city of Azerbaijan.




**2015**

## AZƏRBAYCANDA İLK ELEKTRİK MÜHƏRRİKLİ AVTOMOBİLLƏRİN TƏQDİMATI

**Məqsəd:** Azərbaycanda davamlı nəqliyyatdan istifadəni təşviq etmək, innovativ metodlar vasitəsilə ətraf mühitin mühafizəsinə töhfə vermək və ölkə ərazisində sağlam mühit yaratmaq.

**Tərəfdaşlar:** Heydər Əliyev Fondu, Azərbaycan Avtomobil Federasiyası, Green Car Azerbaijan.

**Nəticə:** Bakıda ilk "Green Car" adlı elektrik avtomobil satış və servis mərkəzi açılıb və bu cür nəqliyyat vasitəsi sahiblərinə təmənnasız enerji təklif edir.

**2015 – DAVAM EDİR**

## ENERJİ DOLDURMA MƏNTƏQƏLƏRİNİN QURAŞDIRILMASI

**Məqsəd:** Azərbaycanda qabaqcıl ekoloji təmiz texnologiyaları tətbiq etmək, innovativ metodlarla ətraf mühitin mühafizəsinə töhfə vermək, ekoloji nəqliyyat vasitələrindən istifadənin təşviqi və ölkə ərazisində sağlam mühit yaratmaq.

**Tərəfdaşlar:** Green Car Azerbaijan, Azərişıq QSC.

**Nəticə:** Bu günə qədər Bakı şəhərində üç enerji doldurma məntəqəsi quraşdırılmış, gələcəkdə isə ölkə ərazisində 200 ədəd bu cür stansiyanın quraşdırılması nəzərdə tutulur. Qarşılıqlı razılaşmaya əsasən sözügedən məntəqələr təmənnasız enerji təklif edəcək.

**2015 – DAVAM EDİR**

## "IDEA" VELOSİPED DAYANACAĞI

**Məqsəd:** Ekoloji təmiz nəqliyyat vasitəsi kimi velosipedlərin təşviqi, mühərrikli nəqliyyat vasitələrindən istifadənin azaldılması.

**Tərəfdaşlar:** Azərbaycan Velosiped İdmanı Federasiyası, Green Car Azerbaijan.

**Nəticə:** Bakı şəhərinin müxtəlif yerlərində velosiped dayanacaqları quraşdırılmış, gələcəkdə bu dayanacaqların sayının 100-ə çatdırılması nəzərdə tutulur.

**2013**

## EKO VELOSİPED

**Məqsəd:** Ekoloji təmiz nəqliyyat vasitəsi kimi velosipedlərin təşviqi, mühərrikli nəqliyyat vasitələrindən istifadənin azaldılması.

**Tərəfdaşlar:** Heydər Əliyev Fondu, Gəncə Şəhər İcra Hakimiyyəti.

**Nəticə:** Azərbaycanın ikinci böyük şəhəri Gəncədə velosipedlərlə təchiz edilmiş dayanacaqlar quraşdırılmış və velosiped cığırları çəkilmişdir.



# INGER ANDERSEN

## IUCN DIRECTOR GENERAL

The end of 2015 saw two breakthrough advances for the planet and its peoples: in September, the adoption of the 2030 Agenda for Sustainable Development, and in December, the Paris Agreement on climate change. Despite these momentous international agreements which provide a vital springboard for environmental action, we must not lose sight of the fact that the world still faces a rapidly closing window. We still find ourselves in a situation where the actions we take today will define nature's ability to support us as a species during our lifetime and for generations to come.

In this context, the work of IDEA is critical, and now - in its fifth year - this innovative platform is an agent for change towards greater sustainability and environmental stewardship.

I congratulate IDEA for its first five years of pioneering work and for its continued role in fostering so many of the conversations and dialogues we need if we are to achieve the ambitious sustainable development agenda set in 2015.

# İNGER ANDERSEN

## IUCN-NİN BAŞ DİREKTORU

2015-ci ilin sonunda biz planetimiz və insanlar üçün iki tarixi hadisənin - sentyabr ayında Davamlı İnkişaf üzrə 2030 Gündəliyi və dekabr ayında Paris İqlim Sazişinin qəbul edilməsinin şahidi olduq. Ətraf mühit üzrə fəaliyyət üçün əlverişli şərait yaradan bu mühüm beynəlxalq razılaşmalara baxmayaraq, biz dünyanın sürətlə dönülməz vəziyyətə doğru getdiyini unutmamalıyıq. Bu gün bizim atdığımız addımlar təbiətin bizi və gələcək nəsilləri təmin etmək qabiliyyətini müəyyən edəcək.

Bu kontekstdə, IDEA-nın gördüyü işlər mühüm əhəmiyyət kəsb edir və artıq fəaliyyətinin beş illiyini qeyd edən bu innovativ platforma davamlılığın təşviqi və ətraf mühitin qorunmasında vacib rol oynayır.

Mən IDEA-nı fəaliyyətinin ilk beş illiyinin tamam olması münasibəti ilə təbrik edir, 2015-ci ildə qarşıya qoyulmuş davamlı inkişaf məqsədlərinə nail olunması üçün tələb olunan dialoqların təşviqində uğurlar arzulayıram.



IDEA

International Dialogue for Environmental Action

4 QUALITY EDUCATION

**QUALITY EDUCATION**

Ensure inclusive and quality education for all and promote lifelong learning



# EDUCATION

One of the most important targets set in Sustainable Development Goal 4 (Quality Education) relates to ensuring that all learners acquire the knowledge and skills needed to promote sustainable development, including through education for sustainability and sustainable lifestyles. It is virtually impossible to overestimate the significance of education in environmental protection and sustainable development, as it is the only path to a fundamental and lasting change. At IDEA, we believe that education is the main ingredient for motivating and equipping a generation to create such change. For that reason, we have devoted massive efforts aimed at implementation of myriad educational programs and activities, including training sessions, scientific courses, seminars, lectures, camps and field studies. Up to 30 thousand people have benefitted from IDEA's educational initiatives so far. The items listed below are only some of the countless educational activities carried out by IDEA over the past five years. Other covered themes include the alternative and renewable sources of energy, endangered and recently discovered fauna and flora species of Azerbaijan, legal regulations of environmental protection, Azerbaijani ornitofauna and species observation, and many others. Every year, IDEA expands its agenda with new study activities that are conducted for three pillars of the young generation – children as young as 5 years of age, students and young professionals. For many of its regular events, IDEA has three well-equipped resource centers, including two in Baku and one in Ganja.

# TƏHSİL

SDG 4-də (Keyfiyyətli təhsil) əks olunmuş ən vacib hədəflərdən biri hər kəsin davamlı inkişafı təşviq etmək üçün zəruri bilik və bacarıqla təmin edilməsidir. Ətraf mühitin mühafizəsi və davamlı inkişafda təhsilin yeri misilsizdir, çünki bu əsaslı və dayanıqlı dəyişikliyin yeganə yoludur. IDEA olaraq inanırıq ki, təhsil bütöv bir nəsli bu cür dəyişiklik etməyə sövq edə biləcək əsas amildir. Bu səbəbdən, təhsil proqramları və layihələrinin icrasına, o cümlədən treninqlər, elmi kurslar, seminarlar, mühazirələr, təcrübə səfərləri və mövsümi düşərgələrin təşkilinə böyük diqqət ayırırıq. Bu günə qədər IDEA-nın təhsil və tədris təşəbbüslərində 30 minə yaxın insan iştirak etmişdir. Aşağıda sadalanan layihələr IDEA-nın son 5 ildə həyata keçirdiyi tədris proqramının kiçik hissəsini təşkil edir. Bu dövr ərzində tədris proqramı, həmçinin alternativ və bərpa olunan enerji mənbələri, Azərbaycanın nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş və yeni kəşf olunmuş flora və fauna növləri, ətraf mühitin mühafizəsinin hüquqi tənzimlənməsi, təbiətin monitorinqi və digər mövzuları əhatə etmişdir. IDEA-nın tədris proqramı üç qrup gəncləri – 5 yaşından başlayan uşaqları, tələbələri və gənc mütəxəssisləri əhatə edir və hər il proqram yeni mövzularla zənginləşdirilir. Tədbirlərin böyük əksəriyyəti IDEA-nın Bakı şəhərində yerləşən iki və Gəncə şəhərində yerləşən bir müasir Resurs Mərkəzində təşkil olunur.




## 2016

# “GREEN PACK” MULTIMEDIA TUTORIAL

**Objective:** Contribute to schoolchildren’s understanding of the environment and sustainable development from an early age and to nurture responsible attitudes towards nature among youth.

**Partners:** Ministry of Education, Regional Environment Center for Central and Eastern Europe (REC), “Sustainable Development Society” Public Union.

**Outcome:** A new edition of the “Green Pack” tool was released and presented to educational institutions of Azerbaijan as an interactive tutorial on sustainable development and environment. Students gained an advanced education tool that will help them to deepen their knowledge and accomplish researches in an innovative manner.

## 2016 – PRESENT

# ECOLOGICAL TRAINING PROGRAM “LET’S PROTECT THE ENVIRONMENT TOGETHER”

**Objective:** IInvolve schoolchildren in the tackling of environmental problems and nurture responsible behavior towards nature among young generation.

**Partner:** Ministry of Education.

15 LIFE ON LAND

**LIFE ON LAND**

Sustainably manage forests, combat desertification, halt and reverse land degradation, halt biodiversity loss

17 PARTNERSHIPS FOR THE GOALS

**PARTNERSHIP FOR GOALS**

Revitalize the global partnership for sustainable development



# GREEN AGENDA THROUGH ART/ EXHIBITIONS

The necessity to ensure appreciation of culture's contribution to sustainable development is duly highlighted in Target 4.7 of Sustainable Development Goal 4 (Quality Education). Art is undoubtedly one of the most influential cultural expressions as well as one of the most effective ways to communicate the seriousness of the challenges faced by the global community in providing a healthy environment and advancing sustainable development. Among such challenges is having the capacity to promote education on sustainable development and environmental issues, including climate change, pollution, overfishing, deforestation and species loss. By focusing its creative activities and messages on such problems, IDEA was able to significantly increase awareness of them and garner public support for environmental action, thus contributing towards solution of issues addressed by SDGs 11 (Sustainable Cities and Communities), 12 (Responsible Consumption and Production), 13 (Climate Action), 14 (Life Below Water), and 15 (Life on Land). IDEA's innovative approach in communicating the 'green' agenda has enabled it to successfully organize and engage in numerous art events in Azerbaijan and beyond.

# İNCƏSƏNƏT/SƏRGİ VASİTƏSİLƏ YAŞIL ÇAĞIRIŞLAR

Mədəniyyətin davamlı inkişafa töhfəsi SDG 4-ün (Keyfiyyətli Təhsil) 4.7 hədəfində əks olunmuşdur. Sözsüz ki, incəsənət mədəniyyətin ən təsirli ifadəsidir və sağlam mühit və davamlı inkişafın təmin edilməsi yolunda beynəlxalq ictimaiyyətin üzləşdiyi çağırışların ciddiliyinin çatdırılmasının ən səmərəli vasitəsidir. Bu çağırışlar sırasında davamlı inkişafın tədrisinin təşviqi xüsusi yer tutur. Öz kreativ fəaliyyətini və mesajlarını bu istiqamətdə formalaşdıran IDEA ictimai maarifləndirmənin əhəmiyyətli dərəcədə artırılması və cəmiyyətin dəstəyinə nail olmuş, bununla da SDG 11 (Davamlı şəhərlər və icmalar), SDG 12 (Məsuliyyətli istehlak və istehsal), SDG 13 (İqlim fəaliyyəti), SDG 14 (Su altındakı həyat) və SDG 15-ə (Qurudakı həyat) töhfə vermişdir. IDEA-nın yaşıl məsələləri cəmiyyətə çatdırmaqla bağlı innovativ yanaşması Azərbaycanda və onun hüdudlarından kənarda bir sıra uğurlu tədbirlər keçirməyə imkan vermişdir.




**2013**

## "CHILDREN'S EYES ON EARTH" FESTIVAL & EXHIBITION

**Objective:** Giving young people a platform to show how they see the natural world and a chance to discover some of the challenges currently facing our planet.

**Partners:** Ministry of Youth and Sport, WPO (World Photography Organization), National Geographic Kids, SDN (Social Documentary Network), FotoEvidence, Aina World, SFR Jeunes Talents and Webistan Photo Agency.

**Outcome:** The festival gave the talented winners of the "Children's Eyes on Earth" International Photo Contest a unique opportunity to develop their photography skills through a series of events and workshops, while the exhibitions held in Baku and Valetta (Malta) displayed the winning works of the contest.

**2012 – 2015**

## THE BIG FIVE EXHIBITION

**Objective:** Raise awareness of the local population on the importance of protection of Azerbaijan's biodiversity and its endangered species.

**Partners:** Heydar Aliyev Foundation, Baku Museum of Modern Arts, Qiz Qalasi Art Gallery, Baku Magazine, "Icherisheher" State Historical-Architectural Reserve.

**Outcome:** The Big Five Exhibition has been organized since 2012 in the framework of the annual International Maiden Tower festival. The exhibition consisted of works by local and international artists representing the "big five" animals of the Caucasus that are under the threat of extinction – the brown bear, imperial eagle, grey wolf, gazelle and Caucasian leopard.

**2013**

## INTERNATIONAL GREEN GRAFFITI FESTIVAL

**Objective:** Increase public awareness of global environmental issues by means of graffiti art.

**Outcome:** Young people from Azerbaijan, Russia, Ukraine, Georgia, and the United Kingdom participated in the festival. The participants delivered their messages on environmental issues by drawing different paintings on special stands installed in a central area of Baku. Hundreds of daily park visitors saw these amazing paintings, which focused on the importance of protecting nature.



## 2013

## "YER KÜRƏSİ UŞAQLARIN GÖZÜ İLƏ" BEYNƏLXALQ FOTO FESTİVALI VƏ SƏRGİSİ

**Məqsəd:** Dünya təbiəti barədə öz fikirlərini nümayiş etdirmək üçün gənclərə platforma yaratmaq və planetimizin üzləşdiyi çağırışlar barədə onları məlumatlandırmaq, aktual ətraf mühit problemlərini aradan qaldırmaq üçün insanları ilhamlandırmaq.

**Tərəfdaşlar:** Gənclər və İdman Nazirliyi, WPO (Ümumdünya Fotoqrafiya Təşkilatı), National Geographic Kids, SDN (Social Documentary Network), FotoEvidence, Aina World, SFR Jeunes Talents və Webistan Foto Agentliyi.

**Nəticə:** Yer kürəsi uşaqların gözü ilə müsabiqəsinin qaliblərinə bacarıqlarını təkmilləşdirmək üçün bir sıra seminar və tədbirlərdə iştirak etmək imkanı verilməklə yanaşı, onların əsərləri Bakı və Maltada keçirilmiş sərgilərdə nümayiş olunmuşdur.

## 2012 – 2015

## BÖYÜK BEŞLİK SƏRGİSİ

**Məqsəd:** Azərbaycanın biomüxtəlifliyi və nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş növlərinin mühafizəsinin əhəmiyyəti barədə yerli əhalinin maarifləndirilməsi.

**Tərəfdaşlar:** Heydər Əliyev Fondu, Müasir İncəsənət Muzeyi, Qız Qalası Qalereyası, Baku jurnalı, İçərişəhər Tarix-Memarlıq Qoruğu.

**Nəticə:** Böyük Beşlik Sərgisi Beynəlxalq Qız Qalası festivalı çərçivəsində 2012-ci ildən etibarən təşkil olunmaqdadır. Sərgidə Qafqazın nəsli kəsilmək təhlükəsi altında olan beş heyvanın (qonur ayı, imperator qartalı, boz canavar, ceyran və Qafqaz bəbiri) yerli və xarici sənətkarlar tərəfindən təsviri nümayiş olunur.

## 2013

## BEYNƏLXALQ YAŞIL QRAFFİTİ FESTİVALI

**Məqsəd:** Qraffiti sənəti vasitəsilə qlobal ətraf mühit problemləri barədə əhalinin maarifləndirilməsi.

**Nəticə:** Azərbaycan, Rusiya, Ukrayna, Gürcüstan və Birləşmiş Krallıqdan olan gənclər festivalda iştirak etmişlər. İştirakçılar Bakının mərkəzi parklarında quraşdırılmış lövhələrdə müxtəlif rəsmlər çəkməklə, öz mesajlarını çatdırmışlar. Parkları gün ərzində ziyarət edən yüzlərlə insan təbiətin mühafizəsinin əhəmiyyətindən bəhs edən bu heyranedici rəsm əsərlərinə tamaşa etmişlər.



**2013**

## CHRISTMAS TREE MADE OF RECYCLED MATERIALS

**Objective:** Promoting innovative approaches to the solution of environmental problems and increasing public awareness on post-consumer recycling.

**Partners:** YARAT Contemporary Art Space, IDEA volunteers.

**Outcome:** Around 3000 plastic bottles were collected and used for the construction of a decorative seven meter tall Christmas tree by two British artists Nicholas Blake Sayers and Gleidon Mike Casey. The artificial tree was installed in the center of Baku.

**2012 – ANNUAL**

## “FROM WASTE TO ART” EXHIBITION

**Objective:** Promote innovative approaches to the solution of environmental problems and increase public awareness on post-consumer recycling.

**Partners:** Heydar Aliyev Foundation, Tamiz Shahar JSC, Gala State History and Ethnography Reserve, Q-Gallery.

**Outcome:** Exhibitions displayed various artworks by artists around the world made from domestic waste.

**2014**

## 3D ECO GRAFFITI

**Objective:** Promote beautiful landscape and nature of Azerbaijan and increase public awareness on the protection of the endemic animal species of our region.

**Partner:** YARAT Contemporary Art Space.

**Outcome:** 3D artworks were created by British artists at one of the central parks of Baku. The graffiti works illustrated the rich nature of Azerbaijan, including the five iconic animals of the Caucasus that are under the threat of extinction.

**2014**

## SAMANI INTERNATIONAL ART EXHIBITION

**Objective:** Promote environmental protection and waste reduction, raise awareness on waste and its negative effects on the environment.

**Partners:** Heydar Aliyev Center, Cracking Art Group.

**Outcome:** A traditional exhibition of samani – the symbol of the spring holiday of Novruz – featuring unique designs of samani sculptures made of recycled paper, metal, plastics and wheels, in an event that took place along with the famous Cracking Art Group exhibition of giant artworks made in pop-art genre.



**2013**

## İSTİFADƏ OLUNMUŞ MATERİALLARDAN HAZIRLANMIŞ MİLAD ŞAM AĞACI

**Məqsəd:** Ətraf mühit problemlərinin həllinə innovativ yanaşmaların tətbiqi və ictimai maarifləndirmənin artırılması.

**Tərəfdaşlar:** Yarat Müasir İncəsənət Məkanı, IDEA könüllüləri.

**Nəticə:** Britaniyalı sənətkarlar tərəfindən 7 metrlik dekorativ Şam ağacının düzəldilməsi üçün 3000 işlənmiş plastik butulka istifadə olunmuşdur. Süni ağac yeni il ərəfəsində Bakının mərkəzində quraşdırılmışdır.

**2012 – HƏR İL**

## "TULLANTIDAN İNCƏSƏNƏTƏ" SƏRGİSİ

**Məqsəd:** Ətraf mühit problemlərinin həllinə innovativ yanaşmanın tətbiqi və bu sahədə ictimai maarifləndirmə.

**Tərəfdaşlar:** Heydər Əliyev Fondu, Təmiz Şəhər ASC, Qala Dövlət Tarixi və Etnoqrafiya Qoruğu, Q-Gallery.

**Nəticə:** Sərgidə dünyanın müxtəlif ölkələrində yaşayan sənətkarların tullantıdan hazırlanmış işləri nümayiş olunmuşdur.

**2014**

## 3D EKO-QRAFFİTİ

**Məqsəd:** Azərbaycanın gözəl təbiətini və landşaftını təbliğ etmək və regionun endemik heyvanlarının mühafizəsi barədə əhalini maarifləndirmək.

**Tərəfdaş:** Yarat Müasir İncəsənət Məkanı.

**Nəticə:** Britaniyalı sənətkarlar tərəfindən Bakının mərkəzi parklarından birində 3D əsəri yaradılmışdır. Əsərdə Azərbaycanın zəngin təbiəti, eləcə də Qafqazın nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş 5 nəhəng növü təsvir olunmuşdur.

**2014**

## SƏMƏNİ BEYNƏLXALQ İNCƏSƏNƏT SƏRGİSİ

**Məqsəd:** Ətraf mühitin mühafizəsi və tullantıların azaldılmasının təbliği, tullantıların təbiətə zərəri barədə ictimaiyyətin maarifləndirilməsi.

**Tərəfdaşlar:** Heydər Əliyev Mərkəzi, Cracking Art Group.

**Nəticə:** Novruz bayramının rəmzi olan səməninin ənənəvi sərgisi çərçivəsində istifadə olunmuş kağız, metal, plastik və təkərlərdən hazırlanmış sənət nümunələri nümayiş olunmuşdur.



## 2014

# “HERE TODAY...” EXHIBITION

**Objective:** Showcasing the beauty and the significance of all threatened animal species, as well as the importance of their protection.

**Partners:** Heydar Aliyev Foundation, International Union for the Conservation of Nature (IUCN), Baku Magazine.

**Outcome:** The exhibition on the occasion of the 50th anniversary of the IUCN Red List of Threatened Species was held in London, and brought together works of more than 50 modern art masters depicting the flora and fauna species under threat of extinction.

## 2015

# “VITA VITALE” EXHIBITION

**Objective:** Raise awareness about the environment and the transformation of the planet through human activity.

**Partner:** Heydar Aliyev Foundation.

**Outcome:** Held within the framework of the 56th Venice Biennale, “Vita Vitale” Exhibition consisted of works by talented artists portraying their views on environmental challenges and human impact on nature.

## 2016

# “LIVE LIFE” EXHIBITIONS

**Objective:** Prioritize environmental problems and protection of nature, and raise awareness about the role of art in this field.

**Outcome:** Exhibitions focusing on the theme of nature were launched in London and Paris to display artworks by Leyla Aliyeva as well as various artists from Azerbaijan and around the world. All revenues from the event in London were donated to the National Park Rescue, which is working to save elephants, whose numbers have drastically declined in the last decades mainly due to poaching and habitat loss. Proceeds from the exhibitions in Paris, on the other hand, were directed to IDEA’s multi-dimensional Kura river delta cleaning project.



## 2014

## "BU GÜN BURADA..." SƏRGİSİ

**Məqsəd:** Nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş bütün heyvan növlərinin nümayişi və onların mühafizəsinin vacibliyinin xatırladılması.

**Tərəfdaşlar:** Heydər Əliyev Fondu, Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birlik (IUCN), Baku jurnalı.

**Nəticə:** IUCN-in Qırmızı Siyahısının 50 illik yubileyi münasibətilə Londonda keçirilmiş sərgidə 50-dən artıq müasir incəsənət ustasının təhlükə altında olan flora və fauna növlərini tərənnüm edən işləri nümayiş olunmuşdur.

## 2015

## "VITA VITALE" SƏRGİSİ

**Məqsəd:** Ətraf mühit və planetin insan fəaliyyəti nəticəsində transformasiyası barədə ictimaiyyətin maarifləndirilməsi

**Tərəfdaş:** Heydər Əliyev Fondu.

**Nəticə:** 56-cı Venesiya Biennalesi çərçivəsində təşkil olunan "Vita Vitale" sərgisində istedadlı sənətkarlar ətraf mühit çağırışları və insan fəaliyyətinin təbiətə təsiri barədə işlərini nümayiş etdirmişlər.

## 2016

## "LIVE LIFE" SƏRGİLƏRİ

**Məqsəd:** Ətraf mühit problemləri və təbiətin mühafizəsini prioritetləşdirmək və bu sahədə sənətin rolu barədə ictimaiyyəti maarifləndirmək.

**Nəticə:** London və Parisdə keçirilmiş, təbiət mövzusuna həsr olunmuş sərgilərdə Leyla Əliyeva, eləcə də Azərbaycandan və dünyanın müxtəlif yerlərindən olan rəssamların əsərləri nümayiş olunmuşdur. Londonda keçirilmiş tədbirdən əldə olunan bütün gəlirlər brakonyerlik və təbii arealın məhvi səbəbindən son illər sayı dəhşətli dərəcədə azalmış fillərin xilas olunması ilə məşğul olan National Park Rescue təşkilatına yönəldilmişdir. Parisdəki sərgidən olan gəlirlər Kür çayının deltasının təmizlənməsi üzrə IDEA-nın çoxyönlü layihəsinə istiqamətləndirilmişdir.









IDEA
International Dialogue for Environmental Action

**4 QUALITY EDUCATION**

**QUALITY EDUCATION**

Ensure inclusive and quality education for all and promote lifelong learning

**12 RESPONSIBLE CONSUMPTION AND PRODUCTION**

**RESPONSIBLE CONSUMPTION AND PRODUCTION**

Ensure sustainable consumption and production patterns

**13 CLIMATE ACTION**

**CLIMATE ACTION**

Take urgent action to combat climate change and its impacts

**15 LIFE ON LAND**

**LIFE ON LAND**

Sustainably manage forests, combat desertification, halt and reverse land degradation, halt biodiversity loss

**17 PARTNERSHIPS FOR THE GOALS**

**PARTNERSHIP FOR GOALS**

Revitalize the global partnership for sustainable development



# INNOVATIVE DIALOGUE: FORUMS, CONFERENCES, SUMMITS

Public debates are the birthplaces of new ideas. Dialogue among different organizations, groups or stakeholders is crucial in translating the global development agenda, more specifically the Sustainable Development Goals, into action. Constructive conversations on the environment and sustainability pave the way for fruitful partnerships that yield positive results for both nature and people. IDEA's initiatives to promote and build dialogue represent our modest effort in the direction of advancing the environmental aspects of SDGs, especially those reflected in goals 4, 11, 12, 13, 14 and 15. Themes of our events range from environmental issues such as terrestrial and marine biodiversity protection to challenges in the achievement of sustainability. As in the previous five years, our organization is keen on continuing to commit vast efforts into addressing environmental problems through 'green' dialogue and creative exchange of ideas.

# İNNOVATİV DİALOQ: FORUMLAR, KONFRANSLAR, SAMMİTLƏR

İctimai müzakirələr yeni ideyaların yaranması deməkdir. Müxtəlif təşkilat, qrup və ya tərəflər arasında dialoq qlobal inkişaf üzrə gündəmin, xüsusən Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində zəruri rol oynayır. Ətraf mühit və davamlılıq üzrə edilən konstruktiv söhbətlər həm insanlar, həm də təbiət üçün müsbət nəticələr verən tərəfdaşlıqların yaranmasına gətirib çıxarır. Dialoqun təşviqi və qurulması üzrə təşəbbüslər həyata keçirməklə, IDEA Davamlı İnkişaf Məqsədlərinin ekoloji aspektlərinə, xüsusən də 4,11,12,13,14 və 15-ci məqsədlərdə əks olunmuş mühüm hədəflərə yönəlmiş qlobal səylərə öz töhfəsini vermiş olur. IDEA-nın təşkil etdiyi çoxsaylı tədbirlər biomüxtəlifliyin qorunması kimi ekoloji məsələləri, eləcə də davamlı inkişafla bağlı müxtəlif aktual mövzuları əhatə edir. Son beş ildə olduğu kimi, təşkilatımız gələcəkdə də "yaşıl" dialoq və kreativ ideyaların mübadiləsi vasitəsilə ətraf mühit problemlərinin həllinə yönəlmiş səylərini davam etdirəcəkdir.



**2012**

## "GREEN WEEK" SERIES OF CONFERENCES

**Objective:** Providing a platform where leaders from around the globe could voice concerns about the future of our planet, finding innovative solutions for the economy and environment, advancing youth participation and contribution to the implementation of the commitments made by UN's Rio+20 Conference on Sustainable Development.

**Partner:** The United Nations Environment Programme (UNEP).

**Outcome:** The Green Week events were attended by environmentalists from more than 20 countries as well as high level officials from UNEP and Azerbaijani government. Some of the objectives and themes that were discussed included the youth response to Rio+20 and the role of major stakeholders, green economy, environmental diplomacy, and international affairs. Among the main events held within the Green Week were the International Youth Forum titled "What Did Youth Get Out of Rio+20?", UNEP Major Groups and Stakeholders (MGS) Regional Consultation meeting (RCM) for Europe, an open lecture by UNEP experts on environmental diplomacy and international affairs at the Azerbaijan Diplomatic Academy, and the Green Economy Round Table focusing on the Green Economy Scoping Study jointly prepared by UNEP and Azerbaijani national experts.

**2012**

## "RESPONSIBILITY FOR CLEAN FUTURE" ECO-PANEL DISCUSSION

**Objective:** Open a conversation with youth on responsibility to stay involved in nature protection; increase understanding of contemporary ecological problems and the role of local and international environmental organizations.

**Partners:** Azerbaijan Youth Organization of Russia (AMOR), PwC Russia.

**Outcome:** The panel discussion held in Moscow featured prominent public figures, government officials and members of academia that spoke on ecological problems facing the global community. The event was attended by around 100 Azerbaijani students studying in the Russian Federation, who engaged in interactive discussions with the panelists.

## 2012

# "YAŞIL HƏFTƏ" KONFRANSLAR SİLSİLƏSİ

**Məqsəd:** Planetimizin gələcəyi haqqında narahatlılığı ifadə etmək üçün əlverişli platformanın yaradılması, iqtisadiyyat və ətraf mühit üzrə innovativ ideyaların irəli sürülməsi, gənclərin fəallığının artırılması və onların BMT-nin Davamlı İnkişaf üzrə Rio+20 konfransında müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsi prosesinə cəlb edilməsi.

**Tərəfdaş:** BMT-nin Ətraf Mühit Proqramı (UNEP).

**Nəticə:** "Yaşıl həftə" çərçivəsində keçirilmiş tədbirlərdə 20-dən çox ölkədən olan təbiətsevər, eləcə də Azərbaycan hökuməti və UNEP-in yüksək rəsmiləri iştirak etmişdir. Tədbirlər zamanı Rio+20 üzrə gənclərin fəallığı, əsas tərəflərin rolu, "yaşıl" iqtisadiyyat, ətraf mühit diplomatiyası və beynəlxalq münasibətlərə aid məsələlər və digər mövzular müzakirə edilmişdir. "Yaşıl həftə" zamanı "Gənclər Rio+20-dən nə əldə etdi?" adlı Beynəlxalq Gənclər Forumu, UNEP Əsas Qrup və Tərəflərin Avropa üzrə Regional Müşavirəsinin görüşü, UNEP ekspertlərinin Azərbaycan Diplomatik Akademiyasında açıq mühazirəsi, UNEP və Azərbaycan ekspertlərinin birgə hazırladığı Yaşıl İqtisadiyyat üzrə İlkin Araşdırmaya aid dəyirmi masa və digər tədbirlər keçirilmişdir.



## 2012

# "TƏMİZ GƏLƏCƏK NAMİNƏ MƏSULİYYƏT" EKO-PANEL MÜZAKİRƏSİ

**Məqsəd:** Gənclər ilə təbiətin mühafizəsində iştirak etmək məsuliyyəti haqqında dialoqun qurulması, müasir dövrün ekoloji problemləri, eləcə də yerli və beynəlxalq təşkilatların rolu haqqında maarifləndirilmənin artırılması.

**Tərəfdaşlar:** Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (RAGT), PwC Rusiya.

**Nəticə:** Moskvada keçirilmiş panel müzakirəsində tanınmış ictimai xadimlər, hökumət rəsmiləri və alimlər dünyanın qarşılaşdığı ekoloji problemlərlə bağlı çıxışlar etmişlər. Tədbirə 100-ə yaxın Rusiyada təhsil alan azərbaycanlı tələbə qatılmış və interaktiv müzakirələrdə iştirak etmişdir.




## 2012

# BAKU DEBATE FORUM

**Objective:** Generate innovative ideas on waste reduction, promote low-waste and non-waste development models, and encourage youth to think 'green'.

**Partners:** Tamiz Shahar JSC, "Debate in Civil Society" Public Union.

**Outcome:** Over 2000 students from 15 universities in Azerbaijan participated in a two-month series of events that consisted of training sessions, expert meetings and a debate contest, where the teams competed for the Green Thinking Cup. The training and meetings parts of the forum, focused on the "3R" (Reduce, Reuse, Recycle) approach and other progressive concepts in the field of environment.

## 2014

# THE FIRST ENVIRONMENTAL FORUM OF AZERBAIJAN

**Objective:** Create a platform for the exchange of views on environmental issues facing the country, find solutions to its urgent ecological problems, promote cooperation between NGOs and governmental institutions on environmental protection.

**Partner:** Heydar Aliyev Foundation.

**Outcome:** Held under the slogan "Let's build a green future of Azerbaijan together", the forum brought together representatives of government agencies and NGOs operating in the field of environmental protection. The Forum featured two panel discussions: "National view at environmental problems, their solutions and the role of the NGOs in this context" and "Present and future cooperation between NGOs and governmental institutions on environmental protection in Azerbaijan". "Declaration of the First Environmental Forum of Azerbaijan" was adopted as the outcome document of the event, reflecting the participants' common position on addressing the existing environmental challenges in Azerbaijan.

## 2013

# INTERNATIONAL ENVIRONMENTAL FORUM: "LEARNING FROM EACH OTHER"

**Objective:** Promote environmental sensibility and responsible attitudes among youth, foster the implementation of environmental projects in Azerbaijan.

**Partners:** Ministry of Youth and Sport, "Friends of Nature" Public Association.

**Outcome:** The forum gathered over 40 young environmentalists from the CIS countries. The participants engaged in interesting discussions and shared their knowledge and experiences in sustainable waste management, eco-volunteerism, ecotourism, wildlife preservation and specially protected natural areas.




## 2012

## BAKI DEBAT FORUMU

**Məqsəd:** Tullantıların azaldılması ilə bağlı innovativ ideyaların irəli sürülməsi, az tullantılı və tullantısız inkişaf modellərinin təşviq edilməsi, gənclərdə "yaşıl" düşüncə tərzinin inkişaf etdirilməsi.

**Tərəfdaşlar:** Təmiz Şəhər ASC, "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi.

**Nəticə:** Təlimlər, ekspert görüşləri və debat müsabiqəsindən ibarət olan 2 aylıq tədbirlər silsiləsində Azərbaycanın 15 universitetindən 2000-dən artıq tələbə iştirak etmişdir. Müsabiqədə müxtəlif qruplar Yaşıl Düşüncə Kuboku uğrunda yarışmışlar. Forumun təlim və görüşləri zamanı tullantıların azaldılması, təkrar istifadə və təkrar emal, eləcə də ətraf mühit sahəsində digər proqressiv konsepsiyalar nəzərdən keçirilmişdir.

## 2014

## BİRİNCİ AZƏRBAYCAN ƏTRAF MÜHİT FORUMU

**Məqsəd:** Ölkənin üzləşdiyi ekoloji problemlərə dair fikir mübadiləsi üçün vahid platformanın yaradılması, bu problemlərin həllinin tapılması, ətraf mühitin mühafizəsi sahəsində QHT-lər ilə dövlət qurumları arasında əməkdaşlığın təşviq edilməsi.

**Tərəfdaş:** Heydər Əliyev Fondu.

**Nəticə:** "Azərbaycanın yaşıl sabahını birlikdə quraq" şüarı altında baş tutan forumda müvafiq dövlət qurumları və ətraf mühit sahəsində çalışan QHT-lər iştirak etmişdir. Forum zamanı iki panel müzakirəsi keçirilmişdir - "Ekoloji problemlərə milli baxış, onların həlli yolları və bu işdə QHT-lərin rolu" və "Azərbaycanda ətraf mühitin qorunması sahəsində QHT və dövlət strukturları arasında əməkdaşlığın bu günü və sabahı". Tədbirin yekununda Azərbaycanın ekoloji problemlərinin həllinə dair iştirakçıların birgə mövqeyini əks etdirən "1-ci Azərbaycan Ətraf Mühit Forumunun Bəyannaməsi" qəbul edilmişdir.

## 2013

## "BİR-BİRİMİZDƏN ÖYRƏNİRİK!" BEYNƏLXALQ ƏTRAF MÜHİT FORUMU

**Məqsəd:** Gənclər arasında ətraf mühitə qayğı və məsuliyyət hissinin inkişaf etdirilməsi, Azərbaycanda ekoloji layihələrin həyata keçirilməsinə təkan verilməsi.

**Tərəfdaşlar:** Gənclər və İdman Nazirliyi, "Təbiətin Dostları" İctimai Birliyi.

**Nəticə:** Beynəlxalq forumda MDB dövlətlərindən olan 40-dan çox gənc ekoloq iştirak etmişdir. İştirakçılar tullantıların davamlı idarə edilməsi, eko-könüllülük, eko-turizm, vəhşi təbiətin mühafizəsi və xüsusi mühafizə olunan təbiət əraziləri kimi mövzulara dair maraqlı müzakirələr və fikir mübadiləsi aparmışlar.



**2014**

## CAUCASUS CAT SUMMIT

**Objectives:** Gathering cat experts, researchers and people working in the field of biodiversity conservation to discuss the preservation of the endangered Caucasian leopard and other big cats, and benefit from their knowledge and experience in this regard.

**Partners:** Heydar Aliyev Center, IUCN.

**Outcome:** Prominent international cat experts from around the world held discussions on the protection of the Caucasian leopard with the representatives of IDEA and the Ministry of Ecology and Natural Resources. As a result of discussions held at the Summit, IDEA and the Zoological Society of London, with the participation of WWF, published a joint report entitled “Recovery of the Leopard in Azerbaijan”, which contained practical recommendations on the restoration of Leopards in the region. Thus, the Summit became a starting point for future efforts to save the Caucasian leopard.

**2016**

## “WILDLIFE TRAFFICKING” ROUND-TABLE ON THE OCCASION OF WORLD ENVIRONMENT DAY

**Objective:** Conserving the region’s rich biodiversity, enhancing legislative and institutional measures to combat the killing, trafficking and illegal trade in endangered species.

**Partners:** Ministry of Ecology and Natural Resources, UNEP.

**Outcome:** In accordance with the theme for the 2016 World Environment Day “Zero tolerance for the illegal trade in wildlife”, a round-table titled “Wildlife Trafficking” was held with the participation of representatives of relevant state structures, scientists, researchers and members of civil society and international organizations. The participants engaged in interactive discussions of approaches to tackling the illegal wildlife trade and shared their experiences from related projects, and put forward proposals regarding the application of leading international practices in Azerbaijan. The proposals made during the event were forwarded to relevant government bodies for consideration.

**2016**

## PARTICIPATION AT THE IUCN WORLD CONSERVATION CONGRESS

**Objective:** Take part in the main event that brings together thousands of leaders and decision-makers from government, civil society, indigenous peoples, business and academia, with the goal of conserving the environment.

**Outcome:** The delegation of IDEA actively participated in the sessions of the Congress held in Hawai’i in September of 2016 and brought the threats facing the biodiversity of Azerbaijan and the wider region to the attention of the global community. IDEA’s booth, which highlighted the rare flora and fauna species of Azerbaijan, was installed at the Congress venue.




## 2014

# QAFQAZ BİOMÜXTƏLİFLİK SAMMİTİ

**Məqsəd:** Nəsli kəsilmək təhlükəsi altında olan Qafqaz bəbiri və digər pişikkimilərin qorunmasının müzakirə edilməsi məqsədilə bu sahə üzrə mütəxəssis və tədqiqatçıların, eləcə də biomüxtəlifliyin qorunması sahəsində çalışan peşəkarların bir araya gətirilməsi, onların bilik və təcrübəsindən yararlanmaq.

**Tərəfdaşlar:** Heydər Əliyev Mərkəzi, IUCN.

**Nəticə:** Dünyanın müxtəlif yerlərindən olan pişikkimilər üzrə tanınmış beynəlxalq mütəxəssislər IDEA və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri ilə birlikdə Qafqaz bəbirinin mühafizəsinə dair müzakirələr aparmışlar. Sammitin nəticəsi olaraq, IDEA ilə London Zoologiya Cəmiyyəti (ZSL) tərəfindən, WWF təşkilatının iştirakı ilə, "Azərbaycanda bəbirlərin sayının bərpa edilməsi" adlı birgə hesabat dərc edilmiş, həmin hesabatda məsələ ilə bağlı praktiki tövsiyələr verilmişdir. Qafqaz Biomüxtəlifliyi Sammiti Qafqaz bəbirinin xilas edilməsi üzrə gələcək səylərin başlanğıc nöqtəsi olmuşdur.

## 2016

# BEYNƏLXALQ ƏTRAF MÜHİT GÜNÜ MÜNASİBƏTİLƏ "VƏHŞİ HEYVANLARIN QAÇAQMALÇILIĞI" MÖVZUSUNDA DƏYİRMİ MASA

**Məqsəd:** Regionun zəngin biomüxtəlifliyinin qorunub saxlanması, nəsli kəsilməkdə olan heyvan növlərinin öldürülməsi, qaçaqmalçılığı və qanunsuz ticarətinə qarşı qanunvericilik və institusional tədbirlərin gücləndirilməsi.

**Tərəfdaşlar:** Ekologiya və Təbii Sərvətlər Nazirliyi, UNEP.

**Nəticə:** 2016-cı ildə Beynəlxalq Ətraf Mühit Gününün "Vəhşi heyvanların qanunsuz ticarətinə yol verilməməsi" mövzusuna uyğun olaraq, aidiyyəti dövlət qurumları, o cümlədən hüquq-mühafizə orqanlarının nümayəndələri, elm xadimləri, tədqiqatçılar, vətəndaş cəmiyyəti təşkilatları və beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə dəyirmi masa keçirilmişdir. İştirakçılar vəhşi heyvanların qanunsuz ticarətinə qarşı yanaşmalara dair interaktiv müzakirələr aparmış, müvafiq layihələrlə bağlı öz təcrübələri ilə bölüşmüş və qabaqcıl beynəlxalq təcrübələrin ölkəmizdə tətbiqi ilə bağlı təkliflər irəli sürülmüşlər. Tədbir zamanı səsləndirilən təkliflər baxılması üçün aidiyyəti dövlət qurumlarına göndərilmişdir.

## 2016

# IUCN-NİN ÜMUMDÜNYA MÜHAFİZƏ KONQRESİNDƏ İŞTİRAK

**Məqsəd:** Ətraf mühitin mühafizə olunması məqsədilə hökumət, vətəndaş cəmiyyəti, yerli xalqlar, özəl sektor və akademik dairələrdən olan liderləri bir araya gətirən mühüm toplantıda iştirak etmək.

**Nəticə:** IDEA nümayəndə heyəti 2016-cı ilin sentyabr ayında Havay adalarında keçirilmiş Konqresin sessiyalarında fəal iştirak etmiş, Azərbaycan və regionun biomüxtəlifliyinin üzləşdiyi təhdidləri dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır. Konqresin keçirildiyi məkanda Azərbaycanın nadir flora və fauna növlərini əks etdirən IDEA pavilyonu quraşdırılmışdır.




## 2012 – ANNUAL

### "CASPIAN: TECHNOLOGIES FOR ENVIRONMENT (CTE)" AZERBAIJAN INTERNATIONAL ENVIRONMENTAL EXHIBITION

**Objective:** Attract global attention to environmental projects in Azerbaijan and to establish cooperation between local and international organizations working in the field.

**Outcome:** Over the past years, IDEA has supported the annual Azerbaijan International Environmental Exhibition organized by Caspian Event Organisers LLC and also supported by the Ministry of Ecology and Natural Resources of the Republic of Azerbaijan. This is the only environmental exhibition in the Caspian and Caucasus regions, which presents innovations in environmental protection and natural resource management. Every year, the event brings together exhibitors from dozens of countries, including companies specializing in waste management, eco-friendly products, green energy, landscape design and many other areas.

## 2015

### PARTICIPATION AT THE 2015 UNITED NATIONS CLIMATE CHANGE CONFERENECE (COP21)

**Objective:** Engage in negotiations on a universally binding document on climate change, and enhance international networking.

**Outcome:** IDEA founder Leyla Aliyeva attended the conference, which brought together around 50,000 participants from governments, international organizations, UN agencies, NGOs and civil society. In the framework of COP21, she addressed an event entitled "Innovative decision making tools for low-carbon development and climate resilience in Europe and Central Asia" organized by the Regional Environment Center. The event was dedicated to the subject of ensuring sustainable development in the countries of the Central and Eastern Europe and Central Asia.

## 2014

### PARTICIPATION AT THE IUCN WORLD PARKS CONGRESS IN SYDNEY

**Objective:** Represent IDEA at the landmark global forum on protected areas conservation.

**Outcome:** In November of 2014, IDEA participated at the World Parks Congress organized by the IUCN in Sydney, Australia. IDEA founder Leyla Aliyeva, who was designated as the Champion of the Congress, presented Azerbaijan's experience in preserving nature and biodiversity, and held a number of bilateral meetings with the heads of principal international organizations. A separate pavilion featuring information on IDEA's activities and future projects was set up at the Congress site.




## 2012 – HƏR İL

# “XƏZƏR: ƏTRAF MÜHİT ÜÇÜN TEXNOLOGİYALAR” AZƏRBAYCAN BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİ

**Məqsəd:** Azərbaycanda ətraf mühit üzrə həyata keçirilən layihələrə beynəlxalq diqqətin cəlb edilməsi, müvafiq yerli və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın təşviq edilməsi.

**Nəticə:** IDEA son illər müntəzəm olaraq Caspian Event Organisers MMC tərəfindən təşkil edilən Azərbaycan Beynəlxalq Ətraf Mühit Sərgisini dəstəkləyir. Sərgi ətraf mühitin mühafizəsi və təbii sərvətlərin idarə edilməsi üzrə Xəzər və Qafqaz regionunda keçirilən yeganə bu cür tədbirdir. Sərgi hər il onlarla ölkədən olan iştirakçıları, o cümlədən tullantıların idarə edilməsi, ekoloji təmiz məhsullar, yaşıl enerji, landşaft dizaynı və digər sahələrdə çalışan şirkətləri bir araya gətirir.

## 2015

# BMT-NİN İQLİM DƏYİŞİKLİYİ ÜZRƏ 21-Cİ KONFRANSINDA (COP21) İŞTİRAK

**Məqsəd:** İqlimlə bağlı hüquqi qüvvəyə malik olan universal razılaşmanın müzakirəsində iştirak etmək və təşkilatın beynəlxalq tərəfdaşlar şəbəkəsini möhkəmləndirmək.

**Nəticə:** Hökumətlər, beynəlxalq təşkilatlar, BMT təsisatları və vətəndaş cəmiyyətindən olan təxminən 50000 iştirakçını bir araya gətirən konfransda IDEA təsisçisi və rəhbəri Leyla Əliyeva da iştirak etmişdir. O, Avropa üzrə Regional Ətraf Mühit Mərkəzinin konfrans çərçivəsində təşkil etdiyi “Az karbonlu inkişaf və iqlim dayanıqlılığı üçün innovativ yanaşmalar” mövzusunda tədbirdə çıxış etmişdir. Tədbir Mərkəzi və Şərqi Avropa, Mərkəzi Asiya ölkələrində davamlı inkişafın təmin edilməsi, həmçinin ətraf mühitin mühafizəsi istiqamətində atılan addımlara həsr olunmuşdur.

## 2014

# IUCN-NİN ÜMUMDÜNYA PARKLAR KONQRESİNDƏ İŞTİRAK

**Məqsəd:** Mühafizə olunan ərazilər üzrə mötəbər qlobal forumda IDEA-nın təmsil olunması.

**Nəticə:** 2014-cü ilin noyabr ayında IDEA Avstraliyanın Sidney şəhərində IUCN tərəfindən təşkil olunmuş “Ümumdünya Parklar Konqresində” iştirak etmişdir. Konqresin Müdafiəçisi təyin edilmiş IDEA-nın təsisçisi Leyla Əliyeva təbiətin mühafizəsi və gələcək nəsillərə ötürülməsi sahəsində Azərbaycanın təcrübəsi barədə təqdimat etmiş, bir sıra aparıcı beynəlxalq təşkilatların rəhbərləri ilə ikitərəfli görüşlər keçirmişdir. Konqresin keçirildiyi ərazidə IDEA-nın fəaliyyətini əks etdirən xüsusi pavilyon da qurulmuşdur.



# JAN DUSÍK

## DIRECTOR AND REGIONAL REPRESENTATIVE OF UNEP IN EUROPE

As the Director and Regional Representative of the United Nations Environment Programme (UNEP) in Europe, I take this opportunity to extend my sincere congratulations to the International Dialogue for Environmental Action (IDEA) campaign on this fifth anniversary of establishment.

The UNEP Regional Office for Europe has closely worked with the IDEA campaign since its establishment through organizing joint events in Azerbaijan and also engaging IDEA in regional and global initiatives of UNEP.

We are very pleased and encouraged to see the increasing engagement of the IDEA campaign to promote public awareness and action on environmental issues in Azerbaijan and beyond, and in particular its notable contribution for the active participation of young people in environment and sustainability projects and activities.

In 2014, IDEA campaign was accredited as a non-governmental organization with observer status to UNEP, opening up an opportunity to work with UNEP even more closely, as well as to join a large number of Major Groups and Stakeholders to advance environment and sustainability issues.

Once again, congratulations for the hard work in the last five years, and UNEP stands ready to continue this important work with you and further invite you to play a greater role to engaging young people in the implementation of the 2030 Agenda for Sustainable Development.

# YAN DUSİK

## UNEP-İN AVROPA ÜZRƏ DİREKTORU VƏ REGİONAL NÜMAYƏNDƏSİ

Fürsətdən istifadə edərək BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Avropa üzrə Direktoru və Regional nümayəndəsi olaraq, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq (IDEA) kampaniyasının beşinci ildönümü münasibətilə öz səmimi təbriklərimi çatdırıram.

IDEA təsis edildiyi vaxtdan başlayaraq, UNEP-in Avropa üzrə Regional Ofisi Azərbaycanda birgə tədbirlər təşkil etməklə və IDEA-nı UNEP-in regional və qlobal təşəbbüslərinə cəlb etməklə bu təşkilatla sıx əməkdaşlıq edir.

IDEA-nın Azərbaycanda və ölkədən kənarda ictimai maarifləndirmənin təşviqi, xüsusi ilə gənclərin ətraf mühit və davamlılıq üzrə həyata keçirilən layihə və fəaliyyətlərə cəlb olunmasına yönəlmiş getdikcə artan səyləri bizi sevindirir və ruhlandırır.

2014-cü ildə IDEA-ya qeyri-hökumət təşkilatı qismində UNEP-də müşahidəçi statusu verilmişdir ki, bu da təşkilata UNEP ilə daha yaxından əməkdaşlıq etmək, bir sıra Əsas Qrup və Tərəflərlə birlikdə ətraf mühit və davamlılıq məsələlərinin həllində iştirak etmək imkanı verir.

Bir daha, son beş ildə görülmüş işlərlə bağlı IDEA-ya öz təbriklərimi çatdırıram. UNEP gələcəkdə də bu mühüm fəaliyyəti sizinlə birlikdə aparmağa daim hazır qalır və sizi Davamlı İnkişaf üzrə 2030 Gündəliyinin həyata keçirilməsi prosesinə gənclərin cəlb edilməsi istiqamətində səylərinizi daha da artırmağa dəvət edir.

International Dialogue for Environmental Action



12 RESPONSIBLE CONSUMPTION AND PRODUCTION

**RESPONSIBLE CONSUMPTION AND PRODUCTION**

Ensure sustainable consumption and production patterns

13 CLIMATE ACTION

**CLIMATE ACTION**

Take urgent action to combat climate change and its impacts

17 PARTNERSHIPS FOR THE GOALS

**PARTNERSHIP FOR GOALS**

Revitalize the global partnership for sustainable development



# PARTNERSHIP AND COOPERATION

When dealing with such universal issues as environmental protection and sustainable development, no country or organization can do it alone. The best affirmation of this is reflected in SDG 17 (Partnership for the Goals), which is the last, but certainly not least important goal that puts forward the challenge of revitalizing the global partnership for sustainable development and strengthening the means of implementation. The goal sets an objective to build “partnerships that mobilize and share knowledge, expertise, technology and financial resources, to support the achievement of the sustainable development goals”.

From the very outset, IDEA has devoted major efforts to develop cooperation with both international and local partners, and to benefit from technical and expert support of leading international institutions in addressing the existing and emerging environmental challenges. Since 2011, IDEA established cooperation ties with almost all major international and regional organizations as well as leading NGOs and academic institutions working in the field of environmental protection and nature conservation. Our organization has successfully implemented a number of ambitious projects in partnership with these organizations.

# TƏRƏFDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ

Ətraf mühitin mühafizəsi və davamlı inkişaf kimi qlobal məsələlərə gəldikdə, heç bir ölkə və ya təşkilat bunu təkbaşına həll edə bilməz. Bunun ən bariz nümunəsi Davamlı İnkişaf Məqsədlərinin 17-ci (Məqsədlər naminə Tərəfdaşlıq) və yekun məqsədində əks olunmuşdur. SDG 17 davamlı inkişaf üzrə qlobal tərəfdaşlığın və vasitələrin gücləndirilməsi hədəfini qarşıya qoyur, “davamlı inkişaf məqsədlərinə nail olunmasını dəstəkləmək üçün bilik, təcrübə, texnologiya və maliyyə resurslarını səfərbər edən və bölüşən tərəfdaşlıqlar” qurmağa çağırır.

IDEA yarandığı gündən həm beynəlxalq, həm də yerli tərəfdaşlarla əməkdaşlığın qurulması və mövcud olan və meydana çıxan ekoloji problemlərin həllində texniki və ekspert dəstəyindən faydalanma məsələsinə geniş diqqət ayırmışdır. 2011-ci ildən başlayaraq, IDEA, demək olar ki, ətraf mühitin qorunması ilə məşğul olan bütün aparıcı beynəlxalq və regional təşkilatlar, eləcə də QHT və elmi institutlarla səmərəli əməkdaşlıq əlaqələri yaratmışdır. IDEA bu təşkilatlarla birlikdə bir sıra nəhəng layihələri uğurla həyata keçirmişdir.




## MOBILIZING AZERBAIJANI YOUTH FOR ACTION IN PREPARATION FOR RIO+20

After the Vice-President of the Heydar Aliyev Foundation Leyla Aliyeva founded IDEA in 2011, the United Nations Development Program (UNDP) started supporting the IDEA founder's efforts in leading a national advocacy campaign and actively engaging youth in the global movement for sustainable development in the run-up to the global Rio+20 Summit. On 21 October 2011, the Heydar Aliyev Foundation and UNDP signed a Cooperation Agreement on Mobilizing Azerbaijani Youth for Action in Preparation for the Rio+20 Summit in 2012.

Objectives of the project included engaging youth in the environmental movement in the framework of the IDEA campaign, raising awareness of a broad range of stakeholders in Azerbaijan on the environment, development and the Rio process, and strengthening Azerbaijan's preparedness for Rio+20.

Within the project framework, an essay competition, an international youth camp, and series of seminars were organized in Azerbaijan on the theme of sustainable development. The International Camp of Young Environmentalists, which gathered over 100 youth representatives from around the world, resulted in the adoption of the Gabala Declaration reflecting their position on the environmental situation in the world and expressing commitment to joint action towards environmental issues.

## IDEA AS AN OFFICIAL COORDINATOR OF THE "EARTH HOUR" CAMPAIGN

In 2007 WWF launched the "Earth Hour" campaign in Australia with a view to draw public attention to the impacts of climate change. During "Earth Hour", the lights of landmark buildings in large cities are turned off at 20:30 local time for one hour. Although a symbolic act, the international community has gradually turned its attention to this event, which takes place on the last Saturday of March every year.

Azerbaijan joined the list of countries supporting this global campaign in 2011, and since then the campaign has annually been held in the country with the support of IDEA. In November 2014, WWF granted the status of an official national coordinator of International "Earth Hour" campaign to IDEA.

## RİO+20 SAMMİTİNƏ HAZIRLIQ MƏQSƏDİLƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN SƏFƏRBƏR EDİLMƏSİ

2011-ci ildə Heydər Əliyev Fondunun Vitse-prezidenti Leyla Əliyeva tərəfindən IDEA kampaniyasına start verildikdən sonra BMT-nin İnkişaf Proqramı (UNDP) RİO+20 Sammitinə hazırlıq üçün Azərbaycan gənclərinin səfərbər edilməsi və milli təşviqat kampaniyasının aparılması üzrə IDEA təsisçisinin səylərini dəstəkləməyə başlamışdır. 21 oktyabr 2011-ci il tarixində Heydər Əliyev Fondu ilə UNDP arasında "2012-ci ildə keçiriləcək Rio+20 konfransına hazırlıq məqsədilə Azərbaycan gənclərinin səfərbər edilməsi"nə dair Anlaşma Memorandumu imzalanmışdır.

Layihənin əsas məqsədləri IDEA kampaniyası çərçivəsində gənclərin ekoloji hərəkata cəlb olunması, Azərbaycanda müvafiq maraqlı tərəflər arasında ətraf mühit, inkişaf və Rio prosesi barədə məlumatlılığın artırılması və Azərbaycanın Rio+20 prosesinə hazırlıq səviyyəsinin gücləndirilməsi olmuşdur.

Lahiyə çərçivəsində davamlı inkişaf mövzusu üzrə yazı müsabiqəsi, beynəlxalq gənclər düşərgəsi və bir sıra seminarlar təşkil edilmişdir. Dünyanın müxtəlif yerlərindən olan 100-dən çox gənc nümayəndələrin iştirakı ilə keçirilmiş Gənc Təbiətsevərlər Düşərgəsinin yekunu kimi qəbul edilmiş "Qəbələ Bəyannaməsi"ndə iştirakçılar ətraf mühit problemlərinə dair öz mövqeyini və birgə fəaliyyət göstərilməsinə dair qətiyyətini ifadə etmişlər.

## IDEA "YER SAATI" KAMPANİYASININ RƏSMİ KOORDİNATORU KİMİ

"Yer saatı" kampaniyası ilk dəfə Dünya Vəhşi Təbiət Fondu (WWF) tərəfindən 2007-ci ildə Avstraliyada başladılmışdır. Kampaniyanın məqsədi ictimaiyyətin diqqətini iqlim dəyişikliyinin yaradacağı təhdidlərə yönəltməkdir. "Yer saatı" aksiyaları zamanı böyük şəhərlərdəki məşhur binaların fasad işıqları yerli vaxtla saat 20.30-da bir saatlıq söndürülür. Simvolik aksiya olmasına baxmayaraq, hər il mart ayının son şənbə günü qeyd olunan "Yer saatı" kampaniyasına son illər beynəlxalq ictimaiyyət tərəfindən diqqətin artması müşahidə olunur.

Azərbaycan bu qlobal kampaniyanı dəstəkləyən ölkələr siyahısına 2011-ci ildə daxil olmuşdur və həmin dövrdən etibarən IDEA-nın dəstəyi ilə bu kampaniya hər il Azərbaycanda da keçirilir. 2014-cü ilin noyabr ayında Dünya Vəhşi Təbiət Fondu IDEA İctimai Birliyinə Beynəlxalq "Yer saatı" kampaniyasının Azərbaycan üzrə rəsmi ölkə koordinatoru statusunu vermişdir.



## MEMORANDUM OF COOPERATION WITH THE STATE AGENCY FOR PUBLIC SERVICE AND SOCIAL INNOVATIONS UNDER THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN

In December of 2013, IDEA signed a memorandum of cooperation with the State Agency for Public Service and Social Innovations under the President of the Republic of Azerbaijan. The memorandum envisages, inter alia, cooperation in implementing environmental initiatives and increasing public awareness on ecological issues.

In accordance with the document, the ASAN service centers, which are under the agency, will be used for joint environmental projects. Within these projects, among other things, paper waste collection stations have been installed next to ASAN service centers, IDEA social advertisements are being shown on ASAN Service monitors, and IDEA info stands have been set up at ASAN centers across the country.

## JOINT REPORT WITH THE ZOOLOGICAL SOCIETY OF LONDON (ZSL): "RECOVERY OF THE LEOPARD IN AZERBAIJAN"

IDEA is privileged to have among its partners the Zoological Society of London - a world-renowned centre of excellence for conservation science and applied conservation with a mission to promote and achieve the worldwide conservation of animals and their habitats. Following the Caucasus Cat Summit in 2014, IDEA and ZSL have published a joint report entitled "Recovery of the Leopard in Azerbaijan", which contains practical recommendations on the restoration of Leopards in the region. Based on these recommendations, IDEA, Ministry of Ecology and National Resources and WWF Azerbaijan have drafted a national roadmap, and are currently in the process of undertaking necessary preparation works for its implementation.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİ İLƏ ƏMƏKDAŞLIĞA DAİR MEMORANDUM

2013-cü ilin dekabr ayında IDEA ilə AR Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında əməkdaşlığa dair memorandum imzalanmışdır. Əməkdaşlıq Memorandumunun əsas məqsədi birgə ekoloji təşəbbüslərin həyata keçirilməsi ilə vətəndaşların ekoloji məlumatlılıq səviyyəsinin artırılmasıdır.

Memoranduma əsasən bütün ASAN Xidmət Mərkəzlərinin birgə ekoloji layihələrin həyata keçirilməsi üçün istifadə edilməsi nəzərdə tutulur. Həmin layihələr çərçivəsində ASAN Xidmət Mərkəzləri qarşısında kağızların qəbulu məntəqələri quraşdırılmış, ölkə boyu ASAN mərkəzlərində IDEA məlumat guşələri yerləşdirilmiş, monitorlarda IDEA-nın ekoloji çarxları nümayiş etdirilmiş və s. işlər görülmüşdür.



## LONDON ZOOLOGİYA CƏMİYYƏTİ (ZSL) İLƏ BİRGƏ HESABAT: "AZƏRBAYCANDA BƏBİRLƏRİN SAYININ BƏRPA EDİLMƏSİ"

IDEA heyvanlar və onların areallarının qorunması üzrə dünyanın ən tanınmış elmi mərkəzlərindən olan London Zoologiya Cəmiyyəti ilə sıx tərəfdaşlıq əlaqələri qurmuşdur. 2014-cü ildə keçirilmiş Qafqaz Biomüxtəlifliyi Sammitindən (bəbir və digər pişikkimilərin mühafizəsi) sonra IDEA ilə ZSL tərəfindən "Azərbaycanda bəbirlərin sayının bərpa edilməsi" adlı birgə hesabat dərc edilmiş, həmin hesabatda məsələ ilə bağlı praktiki tövsiyələr əks olunmuşdur. Sözügedən tövsiyələrə əsasən IDEA, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF Azərbaycan tərəfindən milli fəaliyyət planı tərtib edilmişdir və hazırda həmin planın həyata keçirilməsi üzrə hazırlıq işləri aparılır.

ONE Earth Future

www.ideacampaign.org




## ACCREDITATION TO INTERNATIONAL UNION FOR CONSERVATION OF NATURE (IUCN)

Founded in 1948, International Union for Conservation of Nature (IUCN) is the world's largest and oldest professional conservation network. The organization has more than 1,200 members, including 200 government and 900 non-government organizations and brings together about 11,000 scientists and experts from 160 different countries.

IDEA and IUCN have started cooperation since the beginning of 2014, and implemented a number of successful projects. Later that year, IDEA was accredited to IUCN. IDEA's membership at the IUCN created an opportunity to expand its cooperation with the world's leading international organizations functioning in the field of environment, participate in world-class ecological projects more closely, and influence the process of global environmental decision-making.

## OBSERVER STATUS WITH THE UNITED NATIONS ENVIRONMENT PROGRAM (UNEP)

Established in 1972, the United Nations Environment Programme (UNEP) is the leading global environmental authority that sets the global environmental agenda, promotes the coherent implementation of the environmental dimension of sustainable development within the United Nations system and serves as an authoritative advocate for the global environment.

In May 2014, IDEA was accredited to UNEP and obtained an observer status within the organization, thus gaining an opportunity to engage closely with UNEP's work. Accreditation brings many advantages for the organization with respect to participation in the work of UNEP's Governing Bodies, such as the United Nations Environment Assembly (UNEA) of UNEP and its subsidiary bodies.

IDEA has maintained great high-level and working contacts with UNEP and held several joint events in Azerbaijan dedicated to topical environmental challenges.



## TƏBİƏTİN MÜHAFİZƏSİ ÜZRƏ BEYNƏLXALQ BİRLİYƏ (IUCN) ÜZVLÜK

Əsası 1948-ci ildə qoyulmuş Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birlik (IUCN) dünyada ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən ən böyük və ən qədim təşkilatdır. Hazırda təşkilatın 200-dən çox hökumət və 900-dən çox qeyri-hökumət təşkilatı olmaqla ümumilikdə 1200-dən artıq üzvü var. Birlik 160 ölkədə fəaliyyət göstərən 11000-ə yaxın elm adamı və eksperti öz ətrafında toplayır.

IDEA və IUCN 2014-cü ilin əvvəllərində əməkdaşlığa başlamış və birlikdə bir sıra uğurlu layihələr həyata keçirmişlər. 2014-cü ilin sonunda IDEA İctimai Birliyi IUCN tərəfindən akkreditə edilmişdir. IUCN-ə üzv olmaqla IDEA dünyanın ekoloji sahədə fəaliyyət göstərən qabaqcıl beynəlxalq təşkilatları ilə əməkdaşlıq perspektivlərini genişləndirmək, qlobal layihələrdə daha yaxından iştirak etmək və ətraf mühitlə bağlı beynəlxalq səviyyədə qərarların qəbul olunması prosesinə təsir etmək imkanı əldə etmiş oldu.

## BMT-NİN ƏTRAF MÜHİT PROQRAMINDA (UNEP) MÜŞAHİDƏÇİ STATUSU

1972-ci ildə BMT Baş Assambleyasının qətnaməsi əsasında yaradılmış BMT-nin Ətraf Mühit Proqramı (UNEP) ətraf mühitlə bağlı qlobal gündəliyi müəyyən edən, BMT sistemində davamlı inkişafın ekoloji ölçüsünün həyata keçirilməsini təşviq edən və ətraf mühitin qorunmasına xidmət edən aparıcı beynəlxalq təşkilatdır.

2014-cü ilin may ayında IDEA UNEP-də akkreditə olunmuş və bu təşkilatda müşahidəçi statusu almışdır. Bununla da, təşkilatın işində yaxından iştirak etmək imkanı əldə etmişdir. UNEP-də akkreditasiyanın alınması ilə IDEA UNEP-in idarə orqanları, o cümlədən BMT Ətraf Mühit Assambleyası və onun yardımçı qurumlarının işində iştirak etmək imkanı əldə etmişdir.

IDEA ilə UNEP arasında həm rəhbər, həm də işçi səviyyədə səmərəli əlaqələr qurulmuş, Azərbaycanda ətraf mühitin aktual problemlərinin aradan qaldırılmasına həsr edilmiş birgə tədbirlər təşkil edilmişdir.




## COOPERATION WITH THE WORLD WILDLIFE FUND (WWF)

Founded in 1961, WWF is recognized to be one of the world's largest conservation organizations. It has representations in more than 80 countries around the world, including Azerbaijan, with 6000 full-time staff and more than 5 million members. WWF's mission is to stop the degradation of the planet's natural environment and to build a future in which humans live in harmony with nature.

In 2014, IDEA and WWF Azerbaijan launched several ambitious joint projects, including on the restoration of leopards and reintroduction of bisons in Azerbaijan, and most notably, increasing the number of gazelles in the Caucasus region. As a result of joint activities up to 200 gazelles were resettled into different areas of Azerbaijan and Georgia within the program "Reintroduction of gazelles into their historical habitat in the Caucasus". With regard to protecting the Caucasian leopard, IDEA presented 20 surveillance cameras to the Azerbaijan office of WWF with the view to help identify places of habitat and number of leopards in the country.

An agreement on cooperation between IDEA and WWF Russia was signed in October 2012, which envisages, among other things, collaboration on the issue of restoring the leopard and bison populations in the Caucasus.

PANTHERA

## MEMORANDUM OF UNDERSTANDING WITH PANTHERA

Panthera is a charitable organization founded in 2006, which is devoted to preserving big cats and their ecosystems around the globe.

In May of 2014, IDEA established cooperation with Panthera by signing a memorandum of understanding, according to which both organizations pledged to draft a work plan on the protection of leopards in Azerbaijan. The MOU creates opportunities for IDEA to benefit from Panthera's experience in the field of big cat preservation.



## VƏHŞİ TƏBİƏTİN MÜHAFİZƏSİ FONDU İLƏ (WWF) ƏMƏKDAŞLIQ

1961-ci ildə təsis edilmiş Vəhşi Təbiətin Mühafizəsi Fondu (WWF) dünyanın ən böyük təbiəti mühafizə təşkilatlarından biridir. Təşkilat 80-dən çox dövlətdə, o cümlədən Azərbaycanda təmsil olunmaqla yanaşı, 6000 əməkdaş və 5 milyona yaxın üzvə malikdir. WWF-in missiyası planetimizin təbii mühitinin deqradasiyasını dayandırmaq və insanların təbiətlə harmoniyada yaşayacağı gələcək qurmaqdır.

2014-cü ildə WWF və IDEA ikitərəfli əməkdaşlıqda yeni səhifə açmış və bir çox mühüm sahələri əhatə edən, o cümlədən Azərbaycanda bəbirlərin sayının çoxaldılması, Qafqazda nəsli kəsilmiş bizonun regiona təqdim edilməsi və ceyranların reintroduksiyası layihələrini həyata keçirmişlər. Birgə fəaliyyət nəticəsində “Ceyranların Qafqazda tarixən məskunlaşdığı ərazilərə reintroduksiyası” adlı layihə çərçivəsində Azərbaycan və Gürcüstan ərazilərində 200-dək ceyran məskunlaşdırılmışdır. Qafqaz bəbirlərinin qorunmasına gəldikdə, onların məskunlaşdığı ərazilərin müəyyən edilməsi və onların sayının izlənilməsi üçün IDEA tərəfindən Dünya Vəhşi Təbiəti Mühafizə Fondunun Bakı nümayəndəliyinə 20 müşahidə kamerası təqdim olunmuşdur.

2012-ci ilin oktyabr ayında IDEA ilə WWF Rusiya arasında əməkdaşlıq sazişi imzalanmışdır. Saziş Qafqazda bəbir və bizon populyasiyasının bərpası, eləcə də regionun təbiətinin qorunması üzrə digər məsələlərdə əməkdaşlığın qurulmasını nəzərdə tutur.

## PANTHERA İLƏ ANLAŞMA MEMORANDUMU

Panthera təşkilatı 2006-cı ildə pişikkimilərin və onların ətrafındakı ekosistemin mühafizəsi məqsədilə təsis edilmişdir. Panthera təşkilatı fəaliyyətini pələng, aslan, yaquar və bəbirlərin mühafizəsi üzərində qurmuşdur.

2014-cü ilin may ayında IDEA İctimai Birliyi Panthera ilə Anlaşma Memorandumu bağlamaqla, ikitərəfli əməkdaşlığı rəsmiləşdirmişdir. İmzalanan sənədə əsasən hər iki tərəf Azərbaycanda bəbirlərin mühafizəsi ilə bağlı iş planı tərtib etmək niyyətini bildirmişdir. Sənədin imzalanması ilə IDEA böyük pişiklərin mühafizəsi sahəsində Panthera kimi mötəbər təşkilatın təcrübəsindən faydalana bilmək imkanı əldə etdi.



BLUE MARINE FOUNDATION

## COOPERATION WITH THE BLUE MARINE FOUNDATION (BLUE)

Founded in 2010, the Blue Marine Foundation (BLUE) is a charity dedicated to creating marine reserves and establishing sustainable models of fishing. Its mission is to achieve the protection of 10% of the world's oceans by 2020 through a network of marine reserves and private sector led solutions in the sea.

IDEA established cooperation with BLUE in 2015 and, upon IDEA's invitation, a delegation headed by the foundation's chairperson visited Azerbaijan, which was followed by several subsequent visits its marine biodiversity expert. During their visits, the experts observed and analyzed the situation with fish stocks in the Caspian Sea, Azerbaijan's internal waters, and got acquainted with country's fishing industry. IDEA and BLUE reached an agreement on the involvement of leading experts from the Foundation in the protection of marine environment in the Caucasus region, particularly of the endangered sturgeon populations of the Caspian.

WILDCRU
Wildlife Conservation Research Unit

## COOPERATION WITH WILDCRU

Founded in 1986 by Professor David Macdonald within the Department of Zoology of the University of Oxford, the Wildlife Conservation Research Unit (WildCRU) is recognized as the leading university-based institute for wildlife conservation research. WildCRU's approach is to combine field research with conservation actions rooted in sound science. Currently, around 50 scientists from WildCRU are heading projects on wildlife conservation carried out in various countries around the world.

In October 2015, upon the invitation of the IDEA, the WildCRU Director and a world-renowned expert on conservation of biodiversity Professor David Macdonald was on a visit to Azerbaijan. In the course of the visit, Professor Macdonald held discussions with representatives of IDEA and WWF Azerbaijan. Furthermore, Professor Macdonald gave a comprehensive lecture on biodiversity conservation at ADA University.

During the meeting between the IDEA founder Leyla Aliyeva and Professor Macdonald, prospects for cooperation between IDEA and the University of Oxford were discussed and an agreement was reached on the admission of one student from Azerbaijan to study biodiversity at the University of Oxford. While both organizations are keen on further developing ties, ways to engage WildCRU in the process conservation and restoration of Azerbaijan's endemic fauna species are currently being explored.

BLUE MARINE FOUNDATION

## MAVİ DƏNİZ FONDU (BLUE) İLƏ ƏMƏKDAŞLIQ

“Mavi Dəniz Fondu” 2010-cu ildə dəniz ətraf mühitinin mühafizəsi və okeanların üzləşdiyi təhlükələrin qarşısını almaq məqsədilə təsis edilmişdir. Fondun missiyası 2020-ci ilə qədər qoruqlar yaratmaqla, okeanların 10 faizinin səmərəli mühafizəsinə nail olmaqdır.

IDEA ilə BLUE arasında əməkdaşlıq 2015-ci ildə qurulmuş və həmin ildə fondun sədri Çarlz Kloverin rəhbərlik etdiyi nümayəndə heyəti IDEA-nın dəvəti əsasında Azərbaycana səfər etmiş, bunun ardınca isə ölkəmizə fondun dəniz biomüxtəlifliyi üzrə ekspertinin səfərləri həyata keçirilmişdir. Səfərlər zamanı mütəxəssislər Xəzər dənizi və Azərbaycanın daxili sularında balıq ehtiyatlarının vəziyyəti, eləcə də ölkənin balıqçılıq sənayesi ilə tanış olmuşlar. IDEA ilə BLUE arasında fondun aparıcı mütəxəssislərinin Xəzərin faunasının, o cümlədən nəsli kəsilmək təhlükəsi altında olan nərəkimilərin sayının bərpasına cəlb olunması barədə razılıq əldə olunmuşdur.




WILDCRU
Wildlife Conservation Research Unit

## VƏHŞİ TƏBİƏTİN MÜHAFİZƏSİNİN TƏDQİQATI BÖLMƏSİ (WILDCRU) İLƏ ƏMƏKDAŞLIQ

1986-cı ildə professor Deyvid Makdonald tərəfindən Oksford Universitetinin Zoologiya Departamenti nəzdində təsis edilmiş WildCRU dünyanın təbiətin mühafizəsi üzrə ixtisaslaşmış ən böyük institutlarından biri hesab olunur. WildCRU-nun əsas məqsədi elmi nəzəriyyə ilə praktiki tədbirlər arasında körpü yaratmaqla biomüxtəlifliyin mühafizəsində müşahidə olunan boşluqları aradan qaldırmaqdan ibarətdir. Hazırda institutun 50-yə yaxın elmi işçisi müxtəlif ölkələrdə fauna növlərinin mühafizəsi üzrə həyata keçirilən layihələrə rəhbərlik edir.

2015-ci ilin oktyabr ayında WildCRU-nun direktoru, biomüxtəlifliyin mühafizəsi üzrə dünya şöhrətli mütəxəssis professor Deyvid Makdonald IDEA-nın dəvəti ilə Azərbaycana səfər etmişdir. Səfər çərçivəsində D.Makdonald IDEA və WWF Azərbaycanın nümayəndələri ilə müzakirələr aparmış, ADA Universitetində biomüxtəlifliyin mühafizəsi haqqında geniş mühazirə ilə çıxış etmişdir.

IDEA təsisçisi Leyla Əliyeva ilə professor Makdonald arasında görüş zamanı iki təşkilat arasında əməkdaşlıq perspektivləri müzakirə edilmiş, bir azərbaycanlı tələbənin Oksford Universitetində biomüxtəliflik ixtisası üzrə təhsil alması üzrə razılıq əldə olunmuşdur. IDEA gələcəkdə WildCRU ilə əməkdaşlıq əlaqələrini inkişaf etdirmək əzmindədir və hazırda sözügedən təşkilatın Azərbaycanın endemik fauna növlərinin qorunub saxlanması və bərpası prosesində iştirakı imkanları nəzərdən keçirilir.




## SPECIAL CONSULTATIVE STATUS WITH ECOSOC

The Economic and Social Council (ECOSOC) is one of the six main organs of the United Nations and is its central platform for reflection, debate, and innovative thinking on sustainable development.

Having considered IDEA's national, regional and international initiatives, ECOSOC has unanimously granted IDEA campaign a special consultative status with the Council on 13 April 2016. The special consultative status enables IDEA to closely and actively engage with various UN bodies. As part of the ECOSOC network, IDEA will benefit from the experience of the UN's specialized agencies and the support of global funds for projects implemented at national, regional and international level. IDEA has also gained the right to participate in the negotiation and adoption of documents during meetings held at UN Headquarters, consult and prepare joint projects with UN bodies, put forward initiatives, and keep the international community informed about ecological and health threats faced by the country and region.

## IDEA FOUNDER LEYLA ALIYEVA AS FAO GOODWILL AMBASSADOR

The Goodwill Ambassador Programme of the Food and Agriculture Organization of the United Nations (FAO) is dedicated to promoting FAO's vision of a world without hunger. The FAO Goodwill Ambassadors - distinguished men and women of talent and passion - have expressed their desire to help focus global attention on the noble aims of the Food and Agriculture Organization of the United Nations.

IDEA founder Leyla Aliyeva was designated as FAO Goodwill Ambassador in May 2015 for her contribution to achieving such goals as combatting hunger, ensuring food safety, increasing efficiency of agriculture, forestry and fishery, and creation of healthy food systems.

ECOSOC
United Nations

## İQTİSADİ VƏ SOSİAL ŞURASI (ECOSOC) YANINDA XÜSUSİ MƏŞVƏRƏTÇİ STATUSU

BMT-nin altı əsas orqanından biri olan İqtisadi və Sosial Şura (ECOSOC) təşkilatın davamlı inkişaf üzrə dialoq və innovativ düşüncə üçün mərkəzi platformasıdır.

13 aprel 2016-cı il tarixində IDEA-nın milli, regional və beynəlxalq səviyyədə reallaşdırdığı təşəbbüslər nəzərdən keçirilmiş və təşkilata ECOSOC yanında xüsusi məşvərətçi statusu verilmişdir. Məşvərətçi statusu IDEA İctimai Birliyinə BMT-nin müxtəlif sahələrdə fəaliyyət göstərən qurumları ilə daha sıx şəkildə və yaxından əməkdaşlıq etmək imkanı verir. BMT ailəsinin bir hissəsi kimi IDEA milli, regional və beynəlxalq səviyyədə həyata keçirdiyi layihələrdə BMT-nin ixtisaslaşmış təşkilatlarının təcrübəsindən və qlobal fondların dəstəyindən yararlanacaqdır. IDEA, həmçinin BMT-nin baş qərargahında keçirilən iclaslar zamanı sənədlərin razılaşdırılması və qəbulunda iştirak etmək, BMT-nin müxtəlif struktur bölmələri ilə məsləhətləşmələr aparmaq və birgə layihələr hazırlamaq, fəaliyyət dairəsinə aid məsələlər üzrə layihə təşəbbüsləri irəli sürmək, ölkəmizin və regionumuzun üzləşdiyi ekoloji və səhiyyə təhdidlərini dünya ictimaiyyətinin diqqətinə çatdırmaq və digər hüquqlar qazanmışdır.

Food and Agriculture Organization of the United Nations

## IDEA-NIN TƏSİSÇİSİ LEYLA ƏLİYEVANIN FAO-NUN XOŞMƏRAMLI SƏFİRİ TƏYİN EDİLMƏSİ

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Xoşməramlı Səfir Proqramı təşkilatın məqsədlərinin təşviq edilməsinə yönəlib. Öz istedad və bacarığı ilə seçilən görkəmli insanlar olan FAO-nun xoşməramlı səfirləri təşkilatın nəcib məqsədlərinə qlobal diqqətin cəlb edilməsinə yardım etmək istəklərini ifadə etmişlər.

IDEA təsisçisi və rəhbəri Leyla Əliyeva 2015-ci ilin may ayında aclıqla mübarizə, ərzaq təhlükəsizliyinin təmin edilməsi, sağlam qida sistemlərinin yaradılması, eləcə də kənd təsərrüfatı, meşəçilik və balıqçılıqda səmərəliliyin artırılması kimi məqsədlərə nail olunmasında xidmətlərinə görə FAO-nun xoşməramlı səfiri təyin edilmişdir.





AZERBAIJAN YOUTH FOUNDATION

## COOPERATION AGREEMENT WITH THE YOUTH FOUNDATION UNDER THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN

Established in 2011, the Youth Foundation under the President of the Republic of Azerbaijan is a non-profit organization aiming to stimulate of activities in the sphere of science, education, culture and other fields related to the youth policy. The Foundation lists environmental education of youth as one of its main areas of focus.

Cooperation in the area of ecology between IDEA and the Youth Foundation was launched with the signing of a cooperation agreement in June 2015. Based on the agreement, IDEA and the Youth Foundation jointly implement projects in such areas as enhancing environmental education, countering climate change, waste management, combating the emerging environmental challenges, protection of biodiversity, encouraging sustainable development, promoting environmental responsibility and conducting ecological assessments.

The Council of State Support to Non-Governmental Organizations under the Auspices of the President of the Republic of Azerbaijan

## COOPERATION AGREEMENT WITH THE COUNCIL ON STATE SUPPORT TO NGOS UNDER THE AUSPICES OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN

The Council on State Support to Non-Governmental Organizations under the President of the Republic of Azerbaijan was established in 2007 with a view to promote and support NGO activities in various areas and to incentivize civil initiatives by allocating funds for programs and projects of special public significance.

In May 2016, IDEA established cooperation with the Council on State Support to NGOs in the field of environmental protection and promotion of sustainable development by signing an agreement on cooperation.  Based on the agreement, IDEA and the Council will cooperate and implement joint projects in enhancing ecological education and awareness, promoting environmental responsibility, preservation and expansion of green spaces, encouraging recycling and efficient waste management, protection and restoration of biodiversity, and other relevant areas.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA GƏNCLƏR FONDU İLƏ ƏMƏKDAŞLIQ SAZİŞİ

2011-ci ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətlərin stimullaşdırılmasını təmin edən qeyri-kommersiya qurumudur. Gənclərin ətraf mühit üzrə təhsili fondun fəaliyyətinin əsas istiqamətlərindən biridir.

IDEA-nın Gənclər Fondu ilə ekoloji sahədə əməkdaşlığı 2015-ci ilin iyun ayında əməkdaşlıq sazişinin imzalanması ilə başlamışdır. Sazişə əsasən IDEA ilə Gənclər Fondu arasında ekoloji maarifləndirmənin gücləndirilməsi, iqlim dəyişikliyinə qarşı mübarizə, tullantıların idarə olunması, meydana gələn ekoloji çağırışlarla mübarizə, biomüxtəlifliyin qorunması, davamlı inkişafın təşviqi, ekoloji məsuliyyətin təbliği, ekoloji qiymətləndirmələrin həyata keçirilməsi kimi sahələrdə layihələr həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİ ŞURASI İLƏ ƏMƏKDAŞLIQ SAZİŞİ

Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası 2007-ci ildə QHT-lərin müxtəlif sahələrdə fəaliyyətinin təşviq edilməsi və dəstəklənməsi, eləcə də dövlət və cəmiyyətin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edən proqram və layihələrin maliyyələşdirilməsi vasitəsilə vətəndaş təşəbbüslərinin stimullaşdırılması məqsədilə yaradılmışdır.

IDEA və AR Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası arasında ətraf mühitin mühafizəsi və davamlı inkişafın təşviqi sahələrində əməkdaşlığa 2016-cı ilin may ayında əməkdaşlıq sazişinin imzalanması ilə start verilmişdir. Sazişə əsasən IDEA ilə Şura arasında ekoloji maarifləndirmənin gücləndirilməsi və ekoloji məsuliyyətin təbliği, yaşıllıqların qorunması və artırılması, təkrar emalın təşviqi və tullantıların səmərəli idarə olunması, biomüxtəlifliyin mühafizəsi və bərpası, ekoloji tədrisin gücləndirilməsi və digər sahələrdə əməkdaşlıq və birgə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.





## COOPERATION AGREEMENT WITH THE CAUCASIAN NATURE CENTER

Autonomous Nonprofit Organisation "North Caucasian Nature Preservation and Protection Center" (ANO "Caucasian Nature Center") was established in 2017 in the Russian Federation with the mission to implement projects on conservation of the biodiversity of the North Caucasus as well as support and promote environmental initiatives in the region.

IDEA's close collaboration with the Caucasian Nature Center has resulted in the signing of the Agreement on Strategic Cooperation in November of 2016. As agreed, the Caucasian Nature Center will offer its help to IDEA's project on increasing the leopard populations in Azerbaijan by contributing leopards and providing the necessary expert support.

## ACCREDITATION AND COOPERATION WITH UNCCD

The United Nations Convention to Combat Desertification (UNCCD) is a convention to combat desertification and mitigate the effects of drought. Adopted in 1994, UNCCD is the sole legally binding international agreement linking environment and development to sustainable land management.

IDEA's accreditation with the United Nations Convention to Combat Desertification (UNCCD) was announced in December 2015, during Leyla Aliyeva's meeting with the organization's Executive Secretary Monique Barbut held in the sidelines of COP21. At the same time, a memorandum of understanding on cooperation was signed between IDEA and UNCCD.



## QAFQAZ TƏBİƏTİ MƏRKƏZİ İLƏ ƏMƏKDAŞLIQ SAZİŞİ

“Şimali Qafqaz təbiətinin qorunması və mühafizəsi mərkəzi” Muxtar Qeyri-Kommersiya Təşkilatı (“Qafqaz Təbiəti Mərkəzi” MQKT) Şimali Qafqazın biomüxtəlifliyinin qorunmasına yönəlmiş layihələrin həyata keçirilməsi, eləcə də regionda ekoloji təşəbbüslərin dəstəklənməsi və təşviq edilməsi məqsədilə 2017-ci ildə Rusiya Federasiyasında təsis edilmişdir.

IDEA-nın “Qafqaz Təbiəti Mərkəzi” ilə sıx əməkdaşlığının nəticəsi olaraq, 2016-cı ilin noyabr ayında iki təşkilat arasında Strateji Əməkdaşlıq haqqında Sazişi imzalanmışdır. Əldə edilmiş razılıq əsasında “Qafqaz Təbiəti Mərkəzi” tərəfindən IDEA-nın Azərbaycanda bəbirlərin populyasını artırmaq layihəsi üçün bəbirlərin verilməsi və lazımi mütəxəssis dəstəyinin göstərilməsi nəzərdə tutulur.

## UNCCD İLƏ ƏMƏKDAŞLIQ VƏ AKKREDİTASİYA

BMT-nin Səhralaşma ilə Mübarizə üzrə Konvensiyası (UNCCD) dünyada səhralaşmaya qarşı və quraqlığın nəticələrinin aradan qaldırılmasına yönəlmiş konvensiyadır. 1994-cü ildə qəbul edilmiş UNCCD ətraf mühit və torpaqların davamlı idarə olunması sahələrini birləşdirən yeganə beynəlxalq sənəd hesab olunur.

IDEA-nın UNCCD-də akkreditasiyası 2015-ci ilin dekabr ayında Leyla Əliyevanın UNCCD-nin icraçı katibi Monik Barbut ilə COP21 çərçivəsində keçirilmiş görüşü zamanı təqdim edilmişdir. Görüş zamanı həmçinin IDEA və UNCCD arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.





# INTERVIEW WITH LEYLA ALIYEVA

# LEYLA ƏLİYEVA İLƏ MÜSAHİBƏ



## WE ARE DELIGHTED TO HAVE AN OPPORTUNITY TO SPEAK TO YOU. OBVIOUSLY, 2016 IS A BIG YEAR FOR IDEA, WHICH IS MARKING FIVE YEARS OF ITS OPERATION. WE WOULD LIKE TO CONGRATULATE YOU ON THIS ANNIVERSARY AND THANK YOU FOR YOUR IMPORTANT EFFORTS IN PROTECTING OUR ENVIRONMENT. HAVE THESE BEEN DIFFICULT FIVE YEARS FOR A FAIRLY YOUNG ORGANIZATION SUCH AS IDEA?

I am happy that our endeavors are supported and appreciated by the public as well as the media. Have these been tough five years? Yes, absolutely. But again, no one anticipated this to be an easy job - that was the challenge. From the very outset, we realized that protecting nature and achieving sustainability was a complex, multifaceted and interlinked process. We cannot focus our efforts solely on removing the symptoms of a disease, without treating the disease itself. For instance, merely cleaning polluted areas will only be a temporary solution if we don't raise awareness and promote responsible consumption among the public. Therefore, our approach is to simultaneously address multiple core areas to achieve the most effective problem solution. This is a demanding and time-consuming mission, which requires extensive human and material resources, and I am satisfied with the results achieved in a relatively short time.

> “I am deeply grateful for the support of thousands of concerned individuals, especially young people, who were with us from the beginning.”

**SİZİNLƏ SÖHBƏT ETMƏKDƏN ÇOX MƏMNUNUQ. 2016-CI İL BEŞ İLLİYİNİ QEYD EDƏN IDEA ÜÇÜN ÇOX ƏLAMƏTDAR İLDİR. SİZİ BU MÜNASİBƏTLƏ TƏBRİK ETMƏK VƏ ƏTRAF MÜHİTİMİZİN QORUNMASINA YÖNƏLMİŞ FƏALİYYƏTİNİZƏ GÖRƏ SİZƏ TƏŞƏKKÜR ETMƏK İSTƏRDİK. ÖTƏN 5 İL NİSBƏTƏN YENİ TƏŞKİLAT OLAN IDEA ÜÇÜN ÇƏTİN İLLƏR OLUB?**

Bizim fəaliyyətin həm cəmiyyətdə, həm də mediada yüksək qiymətləndirilməsi məni çox sevindirir. Əlbəttə ki, son beş il olduqca çətin olub, lakin işimizin asan olacağını heç kim gözləmirdi. İlk andan dərk edirdik ki, təbiətin qorunması və davamlılığın əldə edilməsi mürəkkəb və çoxşaxəli prosesdir. Belə ki, biz səylərimizi yalnız xəstəliyin simptomlarının aradan qaldırılmasına deyil, həm də xəstəliyin özünün müalicəsinə yönəltməliyik. Məsələn, ictimaiyyət arasında maarifləndirməni artırmadan və məsuliyyətli münasibəti təşviq etmədən, sadəcə olaraq çirklənmiş əraziləri təmizləməklə biz yalnız problemin müvəqqəti həllinə nail ola bilərik. Bu baxımdan, bizim yanaşma eyni zamanda müxtəlif vacib sahələr üzrə fəaliyyət göstərilməsindən ibarətdir ki, problemlərin mümkün olan ən səmərəli həllinə nail ola bilək. Bu, böyük insan və maddi resurslar, çoxlu enerji və zaman tələb edən missiyadır və mən nisbətən qısa zaman ərzində əldə edilmiş nəticələrdən razıyam.

> “Bu xüsusda, ilk gündən bizimlə birlikdə olan minlərlə insana, xüsusilə də gənclərə dəstəklərinə görə dərin minnətdarlığımı bildirmək istərdim.”





## WOULD IT BE FAIR TO SAY THAT THE MAJORITY OF IDEA'S ACTIVITIES ARE DEVOTED TO ENVIRONMENTAL EDUCATION? DO YOU BELIEVE THAT IS WHERE THE KEY TO SUSTAINABILITY AND ENVIRONMENTAL SOLUTIONS LIES?

The misconception that people can take nature and its resources for granted must be overcome. Educating people about Earth's vulnerabilities, helping them see the direct link between environmental degradation and human activity, and highlighting the urgency of the matter – all this can really make a difference in getting people on board for environmental action and sustainable living. From day one, IDEA has prioritized education as the best way to win people's hearts and minds so that they commit to protecting the environment and behaving responsibly towards it. These people, especially youth, will pass on the message and motivate others, who, in their turn, will take it further.

This is exactly why IDEA devotes so much attention to education and awareness-raising and, every year, we expand our agenda with new study activities covering three pillars of the young generation –children as young as 5 years of age, students and young professionals. Among such activities are numerous training sessions, scientific courses, seminars, lectures, vacation camps, field studies and conversation clubs. Each year, hundreds of young people benefit from IDEA's educational projects.

Our awareness programs involve attracting public attention and engaging the society in public events. Throughout the city, we have installed billboards, banners and ads featuring environmental calls, as well as green corners. In late 2013, we decided to make documentary films about the nine national parks of Azerbaijan. We labelled this project "Nine Miracles of Azerbaijan". Three of the films have already been produced and shown to public. Another remarkable project of IDEA was the introduction of new postage stamps illustrating IDEA's Big Five endangered species in the Caucasus - the brown bear, imperial eagle, grey wolf, gazelle and Caucasian leopard.

People should know the value of the treasures they hold before losing them completely. So, I think that helping people appreciate the nature of Azerbaijan and the region is the least we can do to contribute to global environmental efforts aimed at saving our common Planet.

## IDEA-NIN FƏALİYYƏTİNİN ƏSAS HİSSƏSİNİN EKOLOJİ TƏHSİLƏ HƏSR OLUNDUĞUNU DEMƏK DOĞRU OLAR? SİZ TƏHSİLİN DAVAMLILIQ VƏ ƏTRAF MÜHİT PROBLEMLƏRİNİN HƏLLİNDƏ BAŞLICA ROL OYNADIĞINA İNANIRSINIZ?

Fikrimcə, insanların təbiət və onun ehtiyatlarının tükənməz olmadığını dərk etmələri zəruridir. Yer kürəsinin həssaslıqları haqqında insanları məlumatlandırmaq, ətraf mühitin korlanması ilə insan fəaliyyəti arasında əlaqəni görməyə kömək etmək, məsələnin təciliyinə geniş diqqət cəlb etmək – bütün bunlar cəmiyyətin ekoloji fəallığa və davamlı yaşayışa cəlb edilməsində həlledici rol oynayır. Təhsil ilk gündən IDEA üçün prioritet sahə olmuşdur, çünki bilik vermək insanlar arasında təbiətə qayğının və məsuliyyətin artırılmasının ən effektiv yoludur. Bu insanlar, xüsusilə də gənclər, bizim "yaşıl" çağırışlarımızı cəmiyyət arasında yayacaqdır.

Məhz bu səbəbdən IDEA təhsil və maarifləndirmə işinə bu qədər diqqət ayırır. Hər il bu sahədə fəaliyyətimiz genişlənir və gənc nəslin üç fərqli qrupunu - yaşı beşdən yuxarı olan uşaqlar, tələbələr və gənc peşəkarları əhatə edir. Fəaliyyətimizə müxtəlif təlimlər, elmi kurs, seminar və mühazirələr, düşərgələr, ekskursiyalar və söhbət klubları daxildir. Hər il IDEA-nın təhsil proqramlarından yüzlərlə gənc faydalanır.

Maarifləndirmə proqramlarımızın məqsədi ictimaiyyətin diqqətini ekoloji problemlərə yönəltmək və insanları müxtəlif tədbirlərə cəlb edilməkdən ibarətdir. Bakı şəhərinin ayrı-ayrı yerlərində tərəfimizdən ekoloji çağırışlar əks etdirən bannerlər və "yaşıl" guşələr yerləşdirilir, video çarxlar nümayiş etdirilir. 2013-cü ilin sonunda biz Azərbaycanın 9 milli parkının hər birisi haqqında sənədli film çəkmək qərarına gəldik. Layihəni də "Azərbaycanın 9 möcüzəsi" adlandırdıq. Filmlərin üçü artıq çəkilib və ictimaiyyətə təqdim edilmişdir. Daha bir diqqətəlayiq layihəmiz IDEA-nın müəyyən etdiyi "Qafqazın böyük beşliyi"nə, yəni regionun nəsli kəsilmək təhlükəsi altında olan 5 əsas heyvan növü olan bəbir, ceyran, qonur ayı, boz canavar və imperial qartalına həsr olunmuş poçt markalarının dövriyyəyə buraxılması olmuşdur.

İnsanlar malik olduğu sərvətlərin dəyərini onları itirməzdən əvvəl dərk etməlidir. Bu baxımdan, hesab edirəm ki, Azərbaycanın və regionun təbiətinin qiymətləndirilməsini təşviq edərək, IDEA ətraf mühitin qorunması üzrə qlobal səylərə töhfə vermiş olur.



## WHAT IS THE FOCUS OF SOME OF IDEA'S CURRENT EFFORTS AND WHAT NEW INITIATIVES CAN WE EXPECT TO SEE IN THE YEARS AHEAD?

IDEA attaches great importance to the preservation of our region's rich biodiversity. We have taken a number of practical steps to preserve some of the endangered species of the Caucasus.

IDEA's milestone project "Reintroduction of gazelles to their historical habitat in the Caucasus" was launched in 2013. The project aims to increase the population of goitered gazelles in the region and relocate them in the areas where they previously lived, but disappeared for various reasons. Similarly, an action plan has been prepared on the reintroduction of bisons and we intend to open a breeding center for them in the Ismayilli district.

In 2014, IDEA increased its efforts to save the Caucasian leopard from extinction. We have organized the Caucasus Cat Summit in Baku, which brought together prominent international cat experts from all around the world and which became the starting point for future efforts in this regard. As a result, IDEA and the Zoological Society of London published a joint report entitled "Recovery of the Leopard in Azerbaijan", which contained practical recommendations on the issue. Currently, IDEA and its partners are in the process of undertaking the necessary preparation works for the successful implementation the national roadmap that is based on these recommendations. We recently launched cooperation with the Leopard Breeding and Rehabilitation Centre at the Sochi National Park to advance leopard protection and restoration efforts in Azerbaijan.

IDEA also closely cooperates with the leading international experts, notably from the Blue Marine Foundation, with a view to protect and restore the biodiversity of the Caspian.

> "We are committed to conserve Azerbaijan's biodiversity and to implement similar projects to restore other endemic species of the region that face the threat of extinction."

Another important part of our work is the protection and expansion of green spaces, especially in urban areas. IDEA's tree-saving efforts include two aspects – prevention and increase. We launched our "No tree cutting!" programme in 2014 to combat and prevent unlawful cutting and removal of trees and shrubs. The 1113 hotline and mobile response team has been created. The program is widely supported by the society and public control over illegal destruction of greeneries has been strengthened since the launch of the program. Since its establishment, IDEA has also organized a number of tree-planting campaigns, as a result of which over 5 million trees have been planted in the country. Indeed, we are planning to persistently carry on our efforts in this regard.






## IDEA-NIN HAZIRDA HƏYATA KEÇİRİLƏN PRİORİTET LAYİHƏLƏRİ VƏ GƏLƏCƏKDƏ NƏZƏRDƏ TUTULAN YENİ TƏŞƏBBÜSLƏRİ NƏDƏN İBARƏTDİR?

IDEA regionumuzun zəngin biomüxtəlifliyinin qorunmasına böyük əhəmiyyət verir. Bü xüsusda, təşkilatımız nəsli kəsilmək təhlükəsi altında olan bəzi Qafqaz növlərinin qorunması ilə bağlı bir sıra praktiki addımlar atmışdır.

2013-cü ildə IDEA “Ceyranların Qafqazda tarixən məskunlaşdığı ərazilərə reintroduksiyası” adlı layihəyə start vermişdir. Layihənin məqsədi regionda ceyranların sayının artırılması və onların əvvəllər yaşadığı, lakin müxtəlif səbəblərə görə yox olduğu areallara yenidən yerləşdirilməsindən ibarətdir. Bununla yanaşı, bizonların reintroduksiyası üzrə fəaliyyət planı hazırlanmış, İsmayıllı rayonunda onların artırılması mərkəzinin açılması nəzərdə tutulmuşdur.

2014-cü ildə IDEA İctimai Birliyi Qafqaz bəbirlərinin mühafizəsi istiqamətində səylərini artırmışdır. Bakıda IDEA tərəfindən Qafqaz Biomüxtəlifliyi Sammiti (bəbir və digər pişikkimilərin mühafizəsi) təşkil olunmuşdur ki, tədbirdə dünyanın müxtəlif yerlərindən olan pişikkimilər üzrə tanınmış beynəlxalq mütəxəssislər toplanmışdır. Bu tədbir Qafqaz bəbirinin xilas edilməsi üzrə gələcək səylərin başlanğıc nöqtəsi olmuşdur. Bunun nəticəsi olaraq, IDEA ilə London Zoologiya Cəmiyyəti (ZSL) “Azərbaycanda bəbirlərin sayının bərpa edilməsi” adlı birgə hesabat dərc etmiş, həmin hesabatda məsələ ilə bağlı praktiki tövsiyələr əks edilmişdir. Hal-hazırda, IDEA və tərəfdaşlarımız tərəfindən bu tövsiyələrə əsaslanan milli fəaliyyət planının həyata keçirilməsi üzrə hazırlıq işləri aparılır. Azərbaycanda bəbirlərin mühafizəsi və bərpası səylərini gücləndirmək məqsədilə, biz bu yaxınlarda Soçi Milli Parkındakı Bəbirlərin Çoxaldılması və Reabilitasiyası Mərkəzi ilə əməkdaşlığa başladıq.

Bununla yanaşı, Xəzər dənizinin biomüxtəlifliyinin qorunması və bərpa olunması məqsədilə, IDEA aparıcı beynəlxalq mütəxəssislərlə, xüsusən Mavi Dəniz Fondu (Blue Marine Foundation) ilə əməkdaşlıq qurmuşdur.

> “Biz Azərbaycanın biomüxtəlifliyinin mühafizə edilməsini, regionun nəsli kəsilmək təhlükəsi altında olan digər endemik növlərin bərpası üçün oxşar layihələrin həyata keçirilməsini davam etmək niyyətindəyik.”

Fəaliyyətimizin digər bir vacib hissəsi yaşıllıqların mühafizəsi və genişləndirilməsindən ibarətdir. Bu xüsusda, işimiz iki istiqamətdə - yaşıllıqların məhv edilməsinin qarşısının alınması və onların artırılması üzrə aparılır. 2014-cü ildə IDEA-nın “Ağacların kəsilməsinə yox!” proqramına start verilib. Proqram, Azərbaycanda, xüsusilə Bakı şəhərində qeyri-qanuni ağac və kolların kəsilməsi və məhvinə qarşı yönəlib. Proqram çərçivəsində “1113” qaynar xətti və mobil qrup yaradılmışdır. Bu təşəbbüsümüz cəmiyyət tərəfindən geniş şəkildə dəstəklənmiş və nəticə etibarı ilə yaşıllıqların qanunsuz məhvinə ictimai nəzarət əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Eyni zamanda, IDEA-nın yaranmasından bəri tərəfimizdən bir sıra ağacəkmə kampaniyaları təşkil edilmişdir ki, bunların nəticəsi olaraq ölkə üzrə ümumilikdə 5 milyondan çox ağac əkilmişdir. Əlbəttə ki, biz bü istiqamətdə səylərimizi davam etdirmək niyyətindəyik.

## AS AN ARTIST, MANY OF YOUR WORKS TOUCH ON THE THEME OF NATURE, IN ONE WAY OR ANOTHER. DO YOU THINK THIS REFLECTS YOUR STRONG COMMITMENT AND PASSION FOR ENVIRONMENTAL PROTECTION?

It is true that the theme of harmony with nature and sources of life is central in my creative process. My focus on wildlife stems from my realization of unity of humans and nature. My artworks merely echo my interpretation of this unity. Development of civilizations, industry and technology, and the process of urbanization – all of these things make people forget that we are all in the realm of nature; we are part of nature. And the harsh reality is that those human activities that violate the laws of nature threaten to bring great global calamities. Our utmost responsibility is to be the howling voice of Mother Nature, which houses us and provides us with everything needed for our existence and way of life. This is what drives me as an environmentalist.

> “I was happy to have an opportunity to merge art and environmental action as part of our awareness-raising activities.”

Communicating environmental problems through art has proved to be an effective method of attracting public attention. IDEA both organized and supported a number of art events in Azerbaijan and beyond, including traditional exhibitions and street art events, which enjoyed great public interest.

## LEYLA KHANUM, WE WOULD LIKE TO THANK YOU AGAIN FOR EVERYTHING YOU ARE DOING FOR OUR ENVIRONMENT AND FUTURE GENERATIONS. TO CONCLUDE, IS THERE SOMETHING THAT YOU WOULD LIKE TO SAY TO OUR YOUNG READERS?

I would like to call upon everyone - both young and old generations – not to ignore the plight of our Planet. Our common home is changing and it is the kind of change that has no upside for mankind. Everyone's actions, lifestyles and habits have an impact on the environment in one way or another. Hence, everyone must do their part to ensure our common sustainable future.

> “For the sake of future generations, the humanity is ought to protect the place it calls home – the Earth. That is the least we can do to pay tribute to nature for its generosity and beauty that have embraced us for thousands of years.”





## BİR RƏSSAM KİMİ, ƏSƏRLƏRİNİZİN ÇOXU MÜƏYYƏN DƏRƏCƏDƏ TƏBİƏT MÖVZUSUNA TOXUNUR. BU SİZİN ƏTRAF MÜHİTİN QORUNMASINA OLAN BAĞLILIQ VƏ SEVGİNİZLƏ ƏLAQƏLİDİR?

Doğrudur, təbiətlə ahənglik və həyat mənbələri kimi mövzular mənim yaradıcılığımın əsas sütununu təşkil edir. Vəhşi təbiətə bu qədər diqqət ayırmağım insan və təbiətin birliyinin dərk edilməsindən irəli gəlir. Əsərlərim isə sadəcə olaraq bu birliyin təsviridir. Sivilizasiyaların yaranması, sənaye və texnologiyaların inkişafı, urbanizasiya prosesi – bütün bünların fonunda biz təbiətin hökmranlığında olduğumuzu, onun bir hissəsi olduğumuzu unuduruq. Sərt reallıq isə ondan ibarətdir ki, təbiətin qanunlarını pozan insan fəaliyyəti böyük qlobal fəlakətlərə gətirib çıxarır. Buna görə də, bizim ən başlıca borcumuz bizi saxlayan, mövcudiyyətimiz və həyat tərzimiz üçün hər şeylə təmin edən Ana Təbiətin səsi olmaqdan ibarətdir. Məni ətraf mühitin mühafizəçisi olmağa məhz bu sövq edir.

> “Bizim maarifləndirmə fəaliyyətimiz çərçivəsində incəsənət ilə təbiətin mühafizəsini birləşdirmək mənim üçün çox xoş idi.”

IDEA-nın incəsənət vasitəsilə ətraf mühit problemlərinə diqqət cəlb edilməsinin innovativ üsulları özünü doğrultmuşdur. IDEA-nın Azərbaycanda və xaricdə təşkil etdiyi və dəstəklədiyi bir çox incəsənət tədbirləri, o cümlədən ənənəvi sərgilər və küçə incəsənəti sərgiləri, ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır.

## LEYLA XANIM, BİR DAHA SİZƏ ƏTRAF MÜHİT VƏ GƏLƏCƏK NƏSİLLƏR ÜÇÜN GÖRDÜYÜNÜZ İŞLƏRƏ GÖRƏ MİNNƏTDARLIĞIMIZI BİLDİRMƏK İSTƏRDİK. YEKUN OLARAQ, GƏNC OXUYUCULARIMIZA HANSI MESAJI ÇATDIRMAQ İSTƏRDİNİZ?

Yaşından asılı olmayaraq hər kəsə - həm gənc, həm də yaşlı nəslin nümayəndələrini planetimizin vəziyyətinə biganə qalmamağa çağırıram. Bizim birgə evimiz dəyişikliyə məruz qalır və bu bəşəriyyət üçün yalnız mənfi nəticəsi olan bir dəyişiklikdir. Hər kəsin hərəkətləri, həyat tərzi və vərdişlərinin ətraf mühitə müəyyən bir təsiri var.

> “Bəşəriyyət ev adlandırdığı Yer kürəsini gələcək nəsillərin rifahı naminə qorumağa məcburdur. Təbiətin min illər boyu bizə bəxş etdiyi səxavət və gözəlliyin müqabilində ən azından bunu etməliyik.”

STICK

WITH US!

WWW.IDEACAMPAIGN.ORG



IDEA 5 YEARS ON FOR EARTH
IDEA
www.ideacampaign.org
IDEA
www.ideacampaign.org
IDEA
THE FUTURE IS IN OUR HANDS
www.ideacampaign.org
IDEA
ONE Earth Future
MIND YOUR CO2 FOOTPRINT
www.ideacampaign.org
www.ideacampaign.org
REDUCE YOUR CARBON FOOTPRINT
WALK 4 LIFE
www.ideacampaign.org
IDEA
International Dialogue for Environmental Action
WE SAVE EARTH
www.ideacampaign.org
WHAT CAN I DO TO SAVE OUR PLANET?
www.ideacampaign.org
MƏN PLANETİMİZİ XİLAS ETMƏK ÜÇÜN NƏ EDƏ BİLƏRƏM?
www.ideacampaign.org
ADOPT A FRIEND!
IDEA Animal Care Center
HİMAYƏYƏ GÖTÜR
IDEA Heyvanlara Qayğı Mərkəzi
VƏFALI DOST QAZAN!
ADOPT A FRIEND!
IDEA Animal Care Center
HİMAYƏYƏ GÖTÜR
IDEA Heyvanlara Qayğı Mərkəzi
VƏFALI DOST QAZAN!
Ecological Laboratory for Children
IDEA
IDEA
International Dialogue for Environmental Action
REDUCE
REUSE
RECYCLE
www.ideacampaign.org
ONE EARTH
www.ideacampaign.org
ONE FUTURE
www.ideacampaign.org
ECO
www.ideacampaign.org
www.ideacampaign.org
www.ideacampaign.org


IDEA
YEARS
5
ON
FOR
EARTH
4 QUALITY EDUCATION
6 CLEAN WATER AND SANITATION
7 AFFORDABLE AND CLEAN ENERGY
11 SUSTAINABLE CITIES AND COMMUNITIES
12 RESPONSIBLE CONSUMPTION AND PRODUCTION
13 CLIMATE ACTION
14 LIFE BELOW WATER
15 LIFE ON LAND
17 PARTNERSHIPS FOR THE GOALS
SUSTAINABLE DEVELOPMENT GOALS

IDEA

International
Dialogue for
Environmental
Action

We take our share of responsibility in creating
ONE EARTH, ONE FUTURE!



www.ideacampaign.org
ideacampaign.org

idea_campaign
idea_pu

phone: + (99412) 497-63-16
info@ideacampaign.org

FSC